

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 47 (687) ■ 4 dekabr 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Avropaya inteqrasiya yolunda daha bir mühüm addım

## *Dövlətimizin başçısı «Şərq tərəfdaşlığı» sammitində iştirak etmişdir*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Litva Respublikasının paytaxtı Vilnüs şəhərinə işgüzar səfər etmişdir.*



Dövlətimizin başçısı Litva Respublikasının Baş naziri Alqirdas Butkeviçius ilə görüşmüş, tərəflər Azərbaycan ilə Litva arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafı, qarşılıqlı investisiya qoyuluşu, enerji, ticarət və digər sahələrdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparmışlar. Latviya Prezidenti Andris Berjinslə də görüşən Prezident İlham Əliyev ölkələr arasında siyasi, iqtisadi və digər sahələrdə dostluq əlaqələrinin inkişafı və əməkdaşlığın genişlənməsinin vacibliyini qeyd etmişdir.

Azərbaycan Prezidenti Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronla da görüşmüş, iki ölkə arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, ticarət, energetika və digər sahələrdə uğurlu inkişafından məmnunluğunu bildirmişdir.

Prezident İlham Əliyev noyabrın 29-da Vilnüsdə keçirilən Avropa İttifaqının III «Şərq tərəfdaşlığı» sammitində iştirak etmişdir. Avropa İttifaqına sədrlik edən Litva Prezidenti Darya Qribauskayte tədbiri açaraq bildirmişdir ki, sammit çərçivəsində imzalanacaq sənədlər ikitərəfli və çoxtərəfli əməkdaşlıq baxımından mühüm əhəmiyyət kəsb edir. Həmin sənədlərin xalqlar arasında əlaqələrin də möhkəmlənməsinə töhfə verəcəyini deyən Litva Prezidenti onların real həyatda əks olunması üçün güclü siyasi iradəyə ehtiyac duyulduğunu diqqətə çatdırmışdır. O da qeyd olunmuşdur ki, Azərbaycan da daxil olmaqla altı ölkəni əhatə edən «Şərq tərəfdaşlığı» Polşa və İsveçin Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində MDB dövlətləri ilə münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş təşəbbüsüdür.

Tədbir çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında viza rejiminin sadələşdirilməsi haqqında saziş imzalanmışdır. Sazişi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Avropa İttifaqı tərəfindən isə Litvanın xarici işlər naziri Linas Linkyaviçyus və təşkilatın genişlənmə və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Füle imzalamışlar.

Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuy sazişin imzalanması münasibətilə Prezident İlham Əliyevə təbrik etmiş, sənədin imzalanmasını Azərbaycanı Aİ-yə daha da yaxınlaşdıran mühüm addım kimi qiymətləndirmiş, «Şərq tərəfdaşlığı»na üzv ölkələr ilə imzalanacaq digər sənədlərin də bu prosesə töhfə verəcəyinə əmin olduğunu bildirmişdir. Avropa Komissiyasının sədri Xose Manuel Barrozu isə sənədlərin imzalanmasının Aİ ilə Azərbaycan arasında əməkdaşlıqda yeni mərhələnin başlanğıcı kimi dəyərləndirmişdir. Cənab Manuel Barrozu onu da bildirmişdir ki, III sammit «Şərq tərəfdaşlığı» proqramının nailiyyətləri ölkələrin qarşılıqlı əməkdaşlığını daha da artıracaq.

Tədbirdə III «Şərq tərəfdaşlığı» sammitinin Yekun Bəyannaməsi qəbul olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev sammit çərçivəsində Vilnüsdə Fransa Respublikasının Prezidenti Fransua Ollandla görüşmüşdür. Görüşdə Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi, energetika və mədəniyyət sahələrində əməkdaşlığın inkişafından məmnunluq bildirilmiş, Fransa şirkətlərinin Azərbaycanda uğurla fəaliyyətinin gələcəkdə də genişləndiriləcəyinə əminlik ifadə olunmuşdur.

İspaniya Krallığının Baş naziri Mariano Rahoy Brey ilə görüşən Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirmiş, Azərbaycan ilə İspaniyanın beynəlxalq təşkilatlar, o cümlədən BMT çərçivəsində uğurla əməkdaşlıq etdikləri vurğulamışdır.

Dövlətimizin başçısı Estoniyanın Baş naziri Andrus Ansip ilə görüşmüş, ölkələr arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə etmişdir. M.R.Brey Vilnüs Sammiti çərçivəsində imzalanan viza rejiminin sadələşdirilməsinə dair sənədin əhəmiyyətinə toxunmuş, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafında yaxşı perspektivlərin olduğunu bildirmişdir.

# Azərbaycan xalçaçılıq sənətinin yeni ünvanı

*Dekabrın 2-də Prezident İlham Əliyev Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yeni binasında sərgilərin tərtibatının təşkili ilə tanış olmuşdur.*

Azərbaycan xalçaçılıq sənəti sahəsində dünyanın aparıcı ölkələrindən biridir. Tətbiqi sənətin nadir nümunələrinin toplandığı Xalça Muzeyi ayrı-ayrı dövrlərdə müxtəlif ünvanlarda yerləşmişdir. Ölkəmizin nadir incilərindən olan xalçaların daha geniş və səmərəli nümayişi məqsədilə Prezident İlham Əliyevin sərəncamına əsasən muzey üçün xüsusi binanın tikilməsi qərara alınmışdır. Hazırda orijinal üslubda inşa olunmuş binada tikinti-quraşdırma işləri tam başa çatdırılaraq son tamamlama işləri aparılır. Burada 15 mindən çox eksponatdan ibarət nadir kolleksiya mühafizə olunur. Bu kolleksiyanın tamaşaçılara təqdimatı üçün binada müasir tipli sərginin nümunəsi yaradılır.

Ölkə başçısına məlumat verilmişdir ki, müəllifi tanınmış avstriyalı memar Frans Yants olan muzeyin yeni binasının əsas təyinatına ekspozisiya sərgilərinin təşkili, maarifləndirici proqramların işlənib hazırlanması, qeyri-maddi mədəni irsin qorunması, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi daxildir.

Muzeydə suvenir mağazası fəaliyyət göstərəcəkdir. Muzeyin kolleksiyasında, həmçinin, XIX əsrin sonundan XX əsrin əvvəlinədək ölkəmizin müxtəlif bölgələrində hazırlanmış zərgərlik sənətinin nadir nümunələri toplanmışdır. Zirzəmidəki seyf otağı məhz həmin məmulatın saxlanılması üçün nəzərdə tutulmuşdur. Burada yaradılmış «A1» kateqoriyalı qoruma sisteminə əsasən seyf yalnız barmaq izi ilə açılır.

Diqqətə çatdırılmışdır ki, Xalça Muzeyinin eksponatlarının sonradan yeni binanın müasir fondların qorunması otağında yerləşdirilməsi məqsədilə onların müvafiq vəziyyətə gətirilməsi üçün bir neçə ay vaxt tələb olunur. Muzeyin ekspozisiyası xalça sənətində əsas bədii istiqamətləri dəqiq əks etdirməklə onların özünəməxsus xüsusiyyətlərini, həmçinin materiallarını, işləmələrin texnikasını, incə və çox dərin bədii xüsusiyyətləri ilə ahəngdarlığını, aydın şəkildə təsnifatını açıq göstərir.

Prezident İlham Əliyev Xalça Muzeyinin yeni binasında ekspozisiyanın yerləşdirilməsi sxeminə baxmışdır. Burada muzeyin 3D görüntüsü də təqdim olunur.

Xalçaların toxunması və naxışları barədə qısa filmin təqdimatından sonra dövlətimizin başçısı sərgilənən xalçalarla tanış olmuşdur.

Ekspozisiyadakı xalçalar arasında XVII, XVIII, XIX və XX əsrlərdə toxunan dünya şöhrətli kompozisiyalara rast gəlmək olar. Burada, həmçinin zamanın diktə etdiyi ənənəvi xalq üslublu süjetlərin müəllifi olan rəssamların müasir işləri əks etdirilir.

Prezident İlham Əliyev Azərbaycanda ən böyük ölçülü xalçaya baxmışdır.

Muzeyin sərgi konsepsiyası adi sərgilərdən fərqlənir. Əsas eksponatlar - xalçalar qövsşəkilli divarlardan asılır, onların da əksi bütün yuxarı mərtəbələrdən görünür. Bunun sayəsində sərginin böyük hissəsini müxtəlif rakurslardan izləmək mümkündür. Hər mərtəbədə muzeyin fondundan digər əşyaların və eksponatların sərgilənməsi üçün vitrinlər və platformalar quraşdırılmışdır ki, bu da sərgiyə tam dolğunluq verir və tamaşaçıların sərgini daha yaxşı izləməsinə şərait yaradır. Muzeydə nümayiş zalı da vardır. Burada xalçalar, naxışlar, xalçaçılıq sənətindəki ənənələr barədə filmlər nümayiş olunacaqdır.

Dövlətimizin başçısı buradakı xidməti otaqlara da baxmışdır. Bildirilmişdir ki, terrasda açıq səma altında sərgilərin təşkili mümkün olacaqdır.

# İKT sektoru iqtisadiyyatın əsas inkişaf istiqamətlərindən biridir

*Dekabrın 2-də Bakı Sərgi Mərkəzində «BakuTel-2013» XIX Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi açılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərgi ilə tanış olmuşdur.*

Ənənəyə çevrilmiş «BakuTel» sərgisi Xəzər və Qafqaz regionlarında telekommunikasiya, o cümlədən informasiya texnologiyaları sahələrində ən böyük tədbirdir. Bu il 19-cu dəfə keçirilən «BakuTel» sərgisi ötən illər ərzində telekommunikasiya aləmində mühüm hadisəyə çevrilmişdir. Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Telekommunikasiya İttifaqı və Regional Rabitə Birliyi nümayəndələrinin mütəmadi iştirakı, həmçinin Dünya Sərgi Sənayesi Assosiasiyasının keyfiyyət nişanı ilə təsdiq olunması «BakuTel»in nüfuzunu sübut edən amillərdir.

Sərgiyə marağın artmasını təsdiq edən digər amillər isə builki ekspozisiya meydançasının 35 faiz genişləndirilməsi və «BakuTel-2013»də dünyanın 28 ölkəsindən 300 şirkətin iştirak etməsidir. Sərginin digər fərqləndirici cəhəti Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin fəal dəstəyi ilə təşkil edilən milli stendlərin say etibarilə daha çox olmasıdır. Sərgidə hər il fəal iştirak edən ölkələrə bu il ABŞ, İtaliya, Əfqanıstan və bir sıra digər dövlətlər də qoşulmuşdur.

Dövlətimizin başçısına məlumat verilmişdir ki, «BakuTel» sərgisində ilk dəfə olaraq «İnnovativ məhsullar və həllər» adlı Azərbaycan milli pavilyonu yaradılmışdır.

Azərbaycanda əhalinin 70 faizi internet istifadəçisidir. Onların 50 faizi genişzolaqlı xidmətlərdən istifadə edir. Mobil rabitədə hər 100 nəfərə 110 mobil abunəçi düşür, 3G və 4G texnologiyaları tətbiq edilir. Ölkə əhalisi rəqəmsal televiziya yayımı ilə əhatə olunmuşdur. «Elektron hökumət» həllərinin tətbiqi, vətəndaşlara təqdim olunan elektron xidmətlərin sayı və bu xidmətlərdən istifadənin səviyyəsi artır. Azərbaycan, həmçinin, bir çox regional layihələrin, o cümlədən İKT sahəsində layihələrin təşəbbüsçüsü kimi çıxış edir. Bu layihələrdən biri olan Trans-Avrasiya Super İnformasiya Magistralı-TASİM layihəsi BMT Baş Məclisinin qətnamələri ilə dəstəklənmiş və onun həyata keçirilməsi üçün Avrasiya Rabitə Alyansının yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Beynəlxalq Telekommunikasiya İttifaqının qiymətləndirilməsinə əsasən Azərbaycan son 10 ildə İKT sahəsində dünya üzrə dinamik inkişaf edən ilk 10 ölkə sırasındadır.




Azərbaycan Prezidenti İlham Əliyevə «Dünya Azərbaycanlılarının onlayn Forumu» haqqında da məlumat verilmişdir. Onlayn konfrans sərgi müddətində davam edəcəkdir. Bunun üçün Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən ABŞ, Almaniya, Fransa, Hollandiya, Rusiya, Ukrayna və Türkiyədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının ofislərində xüsusi avadanlıqlar quraşdırılmışdır. Prezident İlham Əliyev onlayn videokonfrans sistemi vasitəsilə Azərbaycan diaspor nümayəndələri qarşısında çıxış edərək demişdir: «Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti genişlənir. İndi demək olar ki, Avropanın əksər ölkələrində diaspor təşkilatları vardır. Onlar təşkilatlanıblar, gözəl fəaliyyət göstərirlər. Eyni zamanda, bu gün Amerika Birləşmiş Ştatlarında, MDB məkanında - Ukraynada, Rusiyada, ümumiyyətlə, müxtəlif ölkələrdə azərbaycanlılar təşkilatlanıblar. Bu gün xaricdə yaşayan azərbaycanlılar üçün yeni imkanlar yaradılır. Eyni zamanda, Azərbaycanın dövlət maraqlarının daha da dolğun şəkildə təmin edilməsi üçün diaspor təşkilatlarının rolu çox böyükdür.

Müxtəlif ölkələrə səfərlərimdə xaricdə yaşayan azərbaycanlılarla çoxsaylı görüşlər zamanı bütün bu məsələlər geniş müzakirə edilmişdir».

Dövlətimizin başçısı sərgi ilə tanışlıq çərçivəsində «Euronews» telekanalının müxbirinə də müsahibə vermişdir. Prezident İlham Əliyev bildirmişdir ki, informasiya texnologiyaları sektoru hazırda Azərbaycan iqtisadiyyatının inkişafında prioritet istiqamətlərdən biridir: «Bu il ölkəmizdə «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilib. Bu, əsasən onunla əlaqədardır ki, bu il Azərbaycanın ilk süni peyki buraxılıb. Bu minvalla biz kosmik sənayesi olan ölkəyə çevrildik. Həmin peyk tamamilə Azərbaycan mütəxəssislərinin idarəsinə verilib. Biz bu proqramı daha da genişləndirmək niyyətindəyik. Yaxın vaxtlarda ikinci, üçüncü peyklər də buraxılacaqdır. Bildiyiniz kimi, ölkəmizdə bu yaxınlarda əhaliyə kütləvi xidmətlər göstərən «ASAN xidmət» fəaliyyətə başlayıb. Bu, əslində, Azərbaycanın brendidir. Bu, bizə korrupsiya ilə mübarizə aparmağa, bürokratizmi aradan qaldırmağa, əhaliyə birbaşa almalı olduğu xidmətləri maneəsiz əldə etməyə kömək edir».

2 Vergi güzəştləri iqtisadi inkişafa xidmət edir

3 Bəyannamələrin yoxlanılmasında keyfiyyətin artırılması prioritet təşkil edir

4 Qiymətli kağızlar bazarı inkişaf mərhələsində

5 Dinamik inkişafa təminat

# Operativ nəzarət tədbirləri

2013-cü ilin noyabr ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 2263 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir. 1255 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 343 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 208 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilmişdir.

Operativ nəzarət tədbirləri zamanı 315 vergi ödəyicisi tərəfindən 504 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 84 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 58 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 670 ədəd mal olduğu aşkarlanmışdır.

Aşkar edilmiş faktlarla bağlı qanunamüvafiq tədbirlər görülmüşdür.

# «Vergi dostları»nın sayı artır

*Noyabr ayının 27-də Göyçay, 28-də isə Kürdəmir şəhərində vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini gücləndirmək, vətəndaşlarda yüksək vergi mədəniyyətini formalaşdırmaq və bu işə ictimaiyyətin geniş təbəqələrini cəlb etmək məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin dəstəyi ilə seçilmiş rayonların ümumtəhsil məktəblərinin müəllimləri ilə görüş keçirilmişdir.*

Hər iki tədbirdə çıxış edən vergilər nazirinin müşaviri Ələkbər Məmmədov vergi ödəyicilərinə göstərilən xidmətlər və bu sahədə Vergilər Nazirliyi tərəfindən həyata keçirilən layihələr, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında Vergilər Nazirliyinə aid nəzərdə tutulmuş tədbirlərin icrası məqsədilə qəbul olunmuş «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası» haqqında tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Ə.Məmmədov nazirlik tərəfindən ərazi vergilər idarələrinin və vergi ödəyicilərinə xidmət mərkəzlərinin yerləşdiyi şəhər və rayon mərkəzləri istisna olmaqla, kənar kənd və qəsəbələrdə ictimaiyyətin daha aktiv üzvü olan müəllimlərdən ibarət «Vergi dostları» şəbəkəsinin yaradıldığını bildirmişdir. O, gənc nəslin vergilər haqqında biliklərinin artırılmasında, şagird və tələbələr arasında vergi mədəniyyətinin formalaşdırılmasında onların öz üzərlərinə götürdüyü öhdəliyin vacibliyini demişdir.

Qeyd olunmuşdur ki, indiyədək respublika üzrə 1394 nəfər müəllimə müvafiq təlim keçilmiş və «vergi dostu» sertifikatı təqdim olunmuşdur. «Vergi dostu» olan şəxs yaşadığı ərazidə əhali arasında vergilərə dair məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini həyata keçirir, vergi sistemində tətbiq olunan elektron xidmətlər barədə vergi ödəyicilərini məlumatlandırır, uşaq və gənclərə vergilərin əhəmiyyətini izah edir.

Sonra təlimləri müvəffəqiyyətlə başa vurmuş 147 nəfər «vergi dostu»na üzvlük sertifikatı, «vergi dostu»nun yaddaş kitabçası və kompüterlər təqdim olunmuş, onlar əməkdaşlıq barədə öhdəlik vərəqələrini imzalamışlar. Beləliklə, respublika üzrə «vergi dost»larının ümumi sayı 1541 nəfərə çatmışdır.

# ARDNF-nin büdcə layihəsi müzakirə olunmuşdur

*Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının növbəti iclası keçirilmişdir.*

ARDNF-nin mətbuat departamentindən bildirmişlər ki, Azərbaycan Respublikasının Baş naziri, Dövlət Neft Fondunun Müşahidə Şurasının sədri Artur Rasizadənin sədrliyi ilə keçirilən iclasda Fondun 2014-cü il üçün büdcə layihəsi müzakirə olunmuşdur.

İclasda Müşahidə Şurası tərəfindən Dövlət Neft Fondunun 2014-cü il üçün büdcə layihəsinə, o cümlədən Fondun idarə edilməsi ilə bağlı xərclərə dair təqdim edilmiş məlumatlara baxılmışdır. Dövlət Neft Fondunun 2014-cü il büdcəsinin gəlirlərinin 11.626.943,4 min manat, xərclərinin 11.349.934,8 min manat, o cümlədən Fondun idarə edilməsi ilə bağlı xərclərinin 58.140,0 min manat məbləğində müəyyən edilməsi məqsədəuyğun sayılmışdır. Həmçinin Fondun 2014-cü il büdcə layihəsi, o cümlədən vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (investisiya siyasəti daxil olmaqla) və idarə edilməsi ilə bağlı illik xərclər smetasının layihələri məqbul hesab edilərək, təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə edilmişdir.

# Vergi güzəştləri iqtisadi inkişafa xidmət edir

*Vergilər Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən, gəlir vergisi üzrə güzəşt və ödənişlərdən azadolmaların əhatə dairəsi genişlənib və kənd təsərrüfatına xüsusi diqqət ayrılıb.*

Vergilər Nazirliyinin Vergi siyasəti idarəsinin rəisi Şamil Ərəbovun sözlərinə görə, bu addımın atılması ölkə iqtisadiyyatında gedən inkişaf proseslərindən yaranan zərurətdir. Məcəlləyə olunmuş son dəyişikliklərdən biri kitab nəşrinin gəlir vergisindən azad olunması ilə bağlıdır. Dəyişikliklərdən sonra Vergi Məcəlləsinin 164.1.8-ci maddəsinə uyğun olaraq, Azərbaycanda ümumtəhsil müəssisələri üçün dərslik komplektləri (iş dəftərləri istisna olmaqla) və uşaq ədəbiyyatı istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti vergidən azad edilib. Məcəllənin 165.1.2 maddəsinə əsasən, Azərbaycanın xarici ölkələrdəki diplomatik xidmət orqanlarında işləyən və bu orqanlarda material-texniki təminat sahəsində öhdəliklərini yerinə yetirən şəxslərə gəlir vergisi üzrə güzəşt və azadetmələr şamil olunub.

Onu da qeyd edək ki, Vergi Məcəlləsinə dəyişikliklə yanaşı, «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Qanuna da dəyişikliklər edilib. Kənd təsərrüfatı məhsullarının istehsalçıları 2014-cü il yanvarın 1-dən başlayaraq daha 5 il müddətinə Vergi Məcəlləsi ilə müəyyən edilən mənfəət və əlavə dəyər vergilərini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azad olunacaqlar.

### Güzəştlər nə vəd edir...

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovun sözlərinə görə, kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin tətbiqi 2001-ci ildən başlayıb və 13 il davam edən bu siyasət indiyədək 1,4 milyard manat vəsaitin fermerlərdə qalmasına və həmin vəsaitin təkrar istehsalın inkişafına yönəldilməsinə imkan verib. Nəticədə istehsalın həcmi 4,4 dəfə artıb.

Aqrar sahənin inkişafında vergi siyasəti mühüm rol oynadığından inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi bilavasitə vergi-fiskal rejimlərin müşayiəti ilə tənzimlənir. Ötən illər ərzində tətbiq olunmuş səmərəli vergi rejimi kənd təsərrüfatının inkişafında stimullaşdırıcı rol oynayıb. Aqrar sektorda tətbiq edilən güzəşt mexanizmi sahibkarların xərc problemlərinin aşağı düşməsinə gətirib çıxarıb. Mülkiyyətçilər üçün vergi güzəştləri nəticəsində kənd təsərrüfatında xərclər 10%-dək azalıb.

Vergi güzəştləri kənd təsərrüfatında istehsalın artımında mühüm rol oynayıb: 2001-ci ildən indiyədək bu sektorda 4 dəfədən çox artım əldə olunub. 2001-ci ilə qədər ölkə üzrə cəmi 1,3 milyard manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilirdisə, hazırda bu rəqəm 5 milyard manatdır. Son 12 ildə ölkədə taxıl istehsalı 1,5 dəfə, kartof istehsalı 2,2 dəfə, meyvə-tərəvəz istehsalı 1,7 dəfə, bostan məhsullarının istehsalı 1,8 dəfə, üzüm istehsalı 1,9 dəfə, şəkər çuğunduru istehsalı 5,7 dəfə, ət istehsalı 2,5 dəfə, süd istehsalı 1,8 dəfə artıb.

### Kənd təsərrüfatının yeni inkişaf ssenariləri

Dövlət qarşıdakı 10 ildə aqrar sektorda məhsul istehsalını 2 dəfə artırmaq hədəfini qoyub və bu məqsədlə stimullaşdırıcı tədbirlər davam etdirilir. Kənd təsərrüfatı məhsulları istehsalçılarının 2014-cü il yanvarın 1-dən daha 5 il müddətinə vergilərdən azad olunması da məhz bu siyasətin tərkib hissəsidir. Bir müddət əvvəl Nazirlər Kabineti tərəfindən ölkəyə idxal olunan bəzi mal və avadanlıqların ƏDV və gömrük rüsumundan azad olunmasına dair qəbul edilən qərar da aqrar sektora dəstək xarakteri daşıyır. İqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova hesab edir ki, aqrar sektor qeyri-neft iqtisadiyyatının əsas bölməsi olmaqla yanaşı, ölkənin milli iqtisadi təhlükəsizlik platformasının sütunlarını özündə birləşdirir. Ərzaq təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı yaxınmüddətli strategiyada aqrar sahəyə dəstəkləyici tədbirlər yer alıb, inkişaf prioritetləri müəyyən edilib. Aqrar sektorda maliyyə, fiskal, vergi, bank və digər sahələr üzrə tətbiq olunmuş səmərəli mexanizmlərin daha da təkmilləşdirilməsi başlıca məsələlər olacaq.

S.Həsənova qeyd etmişdir ki, vergi güzəştləri biznesə əlverişli şərait yaradır, sadələşdirilmiş verginin tətbiqi, vergi dərəcələrinin optimallaşdırılması və digər tədbirlər aqrar sektora investisiyaların artımına səbəb olur. Vergi Məcəlləsinə edilən son dəyişikliklər də iqtisadi inkişafa, o cümlədən iqtisadiyyatın diversifikasiyasına əlavə stimul verir. Xüsusilə də texnoloji parklardakı şirkətlərə vergi güzəştlərinin tətbiq edilməsinin əhəmiyyətinə toxunan nazir müavini aqrar bölmədə də texnopark modelinin yaradılacağına əmindir.

### Kənd təsərrüfatında innovasiyalar modeli - aqroparklar

Kənd təsərrüfatında ən mühüm layihələr aqroparkların yaradılmasını əhatə edir. Sənaye texnoparkları layihəsini hazırkı dövr üçün ən perspektivli model hesab edən hökumət bu parkların digər formasını olan aqroparkların yaradılmasını da məqbul sayır. Bu, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli aqrar və aqrar-sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi daşıyır. Kənd Təsərrüfatı Nazirliyi bu istiqamətdə tədqiqat işləri aparır və qabaqcıl ölkələrin təcrübəsini öyrənir. Bu prosesdə xarici ölkələrin iri fermer təsərrüfatları ilə qarşılıqlı əməkdaşlıq, eləcə də modelləşdirmə seqmentləri nəzərə alınacaq.

Azərbaycanın əsas iqtisadi tərəfdaşlarından olan Dünya Bankı yeni aqrar-sənaye və aqropark modellərinin yaradılmasında ölkəmizə texniki dəstək göstərəcək, bu tipli layihələrin maliyyələşdirilməsində iştirak edəcək.

Bankın Azərbaycan üzrə ölkə meneceri Larisa Leşşenko bildirib ki, kənd təsərrüfatında müasir inkişaf modelləri Dünya Bankının diqqət göstərdiyi əsas sahələrdəndir. Yeni aqrar texnologiyaların tətbiqi ilə kənd təsərrüfatında artım tempini yüksəltmək mümkündür. Azərbaycanda bu sahənin inkişafı üçün tətbiq olunan stimullaşdırıcı vasitələr yaxın müddətdə öz mühüm təsirini göstərə bilər. Dünya Bankının müəssisələri bu məqsədlə Azərbaycanda kənd təsərrüfatının yeni inkişaf konsepsiyasının hazırlanmasına texniki dəstək göstərəcəklər.

Layihə çərçivəsində aqrar sahəyə maliyyə dəstəyi və özəl bankların bu istiqamətdə kapitallaşmanı gücləndirməsi də əsas tədbirlərdəndir. Kənd təsərrüfatının maliyyələşdirilməsinə dəstək verən maliyyə qurumlarının rolunun artırılması üçün yeni kredit və bank tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. Dövlət bu sahəyə maliyyələşməni gücləndirmək niyyətindədir. Qeyd edək ki, 2014-cü ilin dövlət büdcəsində aqrar sektora dövlət dəstəyinin artırılması məqsədilə müddəalar nəzərdə tutulub. Gələn il həm büdcə, həm də Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) vəsaitlərinin bir hissəsi kənd təsərrüfatında aqrar-sənaye komplekslərinin və iri fermer təsərrüfatlarının yaradılmasına yönəldiləcək. Xüsusilə də SKMF aqrar sahədə çalışan sahibkarlara daha çox güzəştli kredit verməyi planlaşdırır. Aqropark layihələrinə isə ən azı 1 milyon manat həcmində kredit veriləcəyi gözlənilir.

**Elbrus CƏFƏRLİ**

# Vergi partnyorluğunun əhəmiyyəti sahibkarlara izah edilir

## *Qeyri-hökumət təşkilatları bu sahədə təbliğat işinin gücləndirilməsini vacib hesab edirlər*



*Son illər həyata keçirilmiş qanunverici-institusional islahatların tərkib hissəsi kimi vergi orqanlarının işinin daha çevik və işlək mexanizmlər əsasında qurulması ölkədə liberal biznes mühitinin formalaşmasına, habelə vergi daxilolmalarının artım dinamikasına müsbət təsir göstərir. Vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin şəffaf və qarşılıqlı etimad üzərində qurulması məqsədilə tətbiqinə başlanılmış Vergi partnyorluğu sazişi» bu baxımdan böyük əhəmiyyət daşıyır.*

Vergi Məcəlləsinə görə, bu sazişlər vergi orqanı ilə vergi ödəyicisi arasında risklərin minimallaşdırılması məqsədilə, könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır. Partnyorluq sazişi vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək, çevik və səmərəli vergi nəzarəti yaratmaq, sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla onun inkişafını stimullaşdırmaq, əməkdaşlığa və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək kimi mühüm məqsədləri müəyyən edir.

Sazişin bağlanması üçün vergi ödəyicisi könüllülük prinsipi əsasında Vergilər Nazirliyinin 2 iyul 2013-cü il tarixli əmri ilə təsdiq edilmiş «Vergi partnyorluru sazişinin bağlanması üçün Ərizə» forması ilə vergi orqanına müraciət edir. Daxil olmuş müraciətə 15 gün müddətində baxılır və sazişin bağlanması barədə qərar qəbul edilərək vergi ödəyicisinə yazılı məlumat verilir. Vergi ödəyicisinin dövlət büdcəsi qarşısında vergi öhdəlikləri olduqda, vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsi (azaldılması) müəyyən edildikdə vergi orqanı sazişin bağlanılmasından yazılı məlumat verməklə imtina edir.

«Vergi partnyorluğu sazişi» vergi ödəyicilərinin hüquqlarının qorunmasını yeni müstəviyə çıxarmaqla, cəmiyyətdə yeni nümunəvi vergi ödəyiciləri adlanan təbəqənin yaranmasına, nəticədə həmin vergi ödəyicilərinin sosial nüfuzunun artmasına səbəb olacaq. Vergilər Nazirliyi rəsmi internet səhifəsi ilə vergi ödəyicilərinə müraciət edərək belə bir sazişin imzalanmasının vacibliyini diqqətə çatdırıb.

Partnyorluq sazişinin əhəmiyyəti və üstünlükləri ilə bağlı hazırda iqtisadi sahədə ixtisaslaşmış qeyri-hökumət təşkilatları da geniş təbliğat işi aparırlar.

***Azərbaycanda Amerika Ticarət Palatasının («AmCham») icraçı direktoru Nərgiz Nəsrullayeva-Müdiroğlu*** qəzetimizə açıqlamasında bildirib ki, rəhbəri olduğu qurum Vergilər Nazirliyi ilə sıx əməkdaşlıq etməklə vergi ödəyicilərin mənafelərinə xidmət edən innovativ yenilikləri birmənalı dəstəkləyir. Onun sözlərinə görə, «AmCham» vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətləri keyfiyyətcə daha da şəffaflaşdıran, sivil məcrada inkişafına təkan verən partnyorluq sazişinin tətbiqində maraqlıdır: «Ötən illərdə təşkilatımız Azərbaycanda biznes mühitinə müsbət təsir göstərən qanunların qəbulu zamanı müxtəlif rəy və təklifləri irəli sürüb. 2010-cu ildən «AmCham»da qanunvericiliyin ekspertizası ilə məşğul olan yeni qurumlar yaradılıb. Bundan sonra biznes və vergi qanunvericiliyi ilə bağlı müxtəlif təkliflərlə çıxış etməyə başladıq. Bizim də dəstəklədiyimiz «Vergi partnyorluğu sazişi»nin praktik şəkildə reallaşmasına ürəkdən sevinirik».



Nərgiz Nəsrullayeva-Müdiroğlu vurğulayıb ki, «AmCham» korporativ qarşılıqlı öhdəliklərin yerinə yetirilməsini təşviq edən ictimai təşkilat olaraq üzvlərinə partnyorluq sazişinin əhəmiyyətini geniş izah edir: «Təşkilatımızın üzvü olan yerli və xarici şirkətlər vergi ödəyiciləri kimi üzərlərinə düşən öhdəliklərə yüksək səviyyədə əməl edirlər. Onlar vergi və digər öhdəliklərin yerinə yetirilməsini korporativ sosial məsuliyyətin mühüm bir hissəsi kimi dəyərləndirirlər. Apardığımız təbliğat işlərinin nəticəsi kimi bir çox yerli və xarici şirkətlər Vergilər Nazirliyi ilə belə bir razılaşmanın imzalanmasına maraq göstərirlər».

***Azərbaycan Marketinq Cəmiyyətinin sədri Rəhim Hüseynov*** bildirib ki, son illər vergi sistemində həyata keçirilən islahatların məntiqi yekunu kimi vergi orqanları və vergi ödəyicilərinin münasibətlərində qarşılıqlı etimad və əməkdaşlıq ovqatı güclənib. Onun fikrincə, son illər Vergi Məcəlləsinə edilmiş dəyişikliklər ölkədə biznes mühitinin yaxşılaşmasına təkan verməklə yanaşı, vergi ödəyicilərinin maraq və mənafelərinin qorunmasına yaxşı imkanlar açır: «Hesab edirik ki, «Vergi partnyorluğu sazişi» Vergilər Nazirliyinin təşəbbüsü ilə reallaşmış mühüm yeniliklərdən biridir. Bu təşəbbüs göstərir ki, nazirlik vergi ödəyicilərinin fəaliyyətinin müasir dövrün tələblərinə cavab verməsində, tamamilə şəffaf, qanunvericiliyin tələblərinə uyğun qurulmasında çox maraqlıdır».

İqtisadçı ekspert hesab edir ki, müəyyən təbliğat və maarifləndirmə işlərindən sonra sahibkarlar partnyorluq sazişinin imzalanmasına daha artıq maraq göstərəcəklər: «Sazişin bağlanılması zamanı ilkin olaraq vergi ili ərzində yaranmış vergi öhdəliklərini tam və vaxtında icra edən, alqı-satqı əməliyyatlarını nağdsız qaydada həyata keçirən vergi ödəyicilərinə üstünlük verilir. Saziş vergilərin düzgün və tam ödənilməsində dövlət vergi orqanlarının yükünün biznes cəmiyyəti ilə bölüşdürülməsinə, qarşılıqlı əməkdaşlıq və məsuliyyət platformasında münasibətlərin qurulmasına yönəlib. Bu baxımdan, biznes və işgüzar nüfuzunu düşünən sahibkarlar bu yeniliyə daha çox maraq göstərməlidirlər. Azərbaycan Marketinq Cəmiyyəti öz üzvləri arasında bu istiqamətdə iş aparılmasına xüsusi önəm verir. Hesab edirik ki, hazırda vacib məsələlərdən biri sazişin əhəmiyyəti barədə fiziki və hüquqi şəxslər arasında geniş maarifləndirmə və təbliğat işləri aparmaq, nümunəvi vergi ödəyicilərini bu işə həvəsləndirməkdir. Fikrimizcə, bununla bağlı kütləvi informasiya vasitələrində də maarifləndirmə işləri genişləndirilməlidir».

**S.MUSTAFAYEV**

# Bəyannamələrin yoxlanılmasında keyfiyyətin artırılması prioritet təşkil edir



*Vergi bəyannamələrinin vaxtında və düzgün təqdim edilməsi vergi ödənişinin ən vacib məqamlarındandır. Vergilər Nazirliyi bu sahədə vergi ödəyicilərinin işini asanlaşdırmaq, vergidən yayınma risklərini azaltmaq, müasir interaktiv metodlardan istifadəni genişləndirmək məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Nazirliyin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Vergidən yayınma risklərinə nəzarət idarəsinin rəisi Nəsib İsgəndərovla söhbətimiz bu məsələlərlə bağlıdır.*

**- Nəsib müəllim, vergi ödəyiciləri tərəfindən bəyannamələrin təqdim edilməsi ilə bağlı vergi ödəyicilərinin işinin asanlaşdırılması məqsədilə hansı işlər görülmüşdür?**

- Vergi ödəyicilərinin işinin asanlaşdırılması, onlara göstərilən xidmətlərin genişləndirilməsi istiqamətində atılan addımlardan biri 2007-ci ilin əvvəlindən etibarən respublikamızda elektron bəyannamələrinin tətbiqinə başlanılması və İnternet Vergi İdarəsinin yaradılması olmuşdur. Nazirlər Kabinetinin 27 iyul 2007-ci il tarixli 120 nömrəli Qərarı ilə «Vergi hesabatının elektron sənəd formasında göndərilməsi Qaydası» təsdiq edilmiş və həmin qərarın qüvvəyə minməsi ilə vergi ödəyiciləri üçün vergi bəyannamələrinin və hesabatların elektron sənəd formasında göndərilməsinə şərait yaranmışdır. Elektron xidmətlərin üstünlükləri, ondan istifadə barədə aparılan təbliğat və izahat işləri nəticəsində qısa müddət ərzində Vergilər Nazirliyi ilə elektron sənəd mübadiləsinə qoşulmuş vergi ödəyicilərinin sayı artaraq hazırda aktiv vergi ödəyicilərinin 80%-dən çoxunu təşkil edir. Elektron bəyannamənin tətbiqi ilə yanaşı, ƏDV depozit hesabı, banklarla elektron mübadilə, 2010-cu ildən isə elektron vergi hesab-fakturalarının tətbiqi İnternet Vergi İdarəsi vasitəsilə həyata keçirilir. Vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin genişlənməsi vergi bəyannamələrinin vaxtında təqdim edilməsinə və vergi öhdəliklərinin yerinə yetirilməsinə çox müsbət təsir göstərmişdir.

**- Bəyannamələrin internet vasitəsilə göndərilməsi sahəsində statistik mənzərə necədir?**

- Əgər 2003-2004-cü illərdə bəyannamələrin vaxtında təqdim edilməsi səviyyəsi 70-75% təşkil edirdisə, 2013-cü ildə bu rəqəm 95%-ə çatmış və təqdim edilən bəyannamələrin 90%-dən çoxu elektron formada internetlə göndərilmişdir.

Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsinə başlanıldığı 2007-ci ildən bəri ümumilikdə 999.015 bəyannamə təqdim edilmişdir ki, bunun da 24.891-i internet vasitəsilə təqdim edilmişdir. 2013-cü ilin yanvar-oktyabr ayları ərzində isə 1.255.565 sayda bəyannamə təqdim edilmişdir ki, bunun da 90,4%-i və ya 1.134.724-ü internet vasitəsilə təqdim edilmişdir. Qeyd olunan fakt vergi bəyannamələrinin elektron sənəd formasında təqdim edilməsinin ödəyicilər üçün əlverişli olmasından irəli gəlir. Çünki bəyannamə və hesabatların internet vasitəsilə təqdim edilməsi vergi ödəyicilərinin poçta getmək zərurətini aradan qaldırır ki, bu da onların vaxta qənaət etmələrinə və rahatlıqlarının təmin olunmasına şərait yaradır.

**- Bəyannamələrin yoxlanılması sahəsində edilən yeniliklər hansı iqtisadi səmərəni vermişdir?**

- Məlum olduğu kimi, vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarəti təmin etmək məqsədilə vergi orqanları tərəfindən həyata keçirilən vergi nəzarəti tədbirlərindən biri də kameral vergi yoxlamasıdır. Kameral vergi yoxlaması yerlərə getmədən, vergi orqanında olan, vergi ödəyicisi tərəfindən təqdim edilən vergi hesabatları, habelə mənbəyi bəlli olan digər sənədlər əsasında həyata keçirilir. Bu baxımdan, dövlət qurumlarının fəaliyyətində şəffaflığın təmin olunmasında, modern və çevik idarəetmənin həyata keçirilməsində, eləcə də vətəndaşların keyfiyyətli xidmətlər əldə etməsində informasiya-kommunikasiya texnologiyaları mühüm rol oynayır. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə dövlət proqramlarını («Elektron Azərbaycan») rəhbər tutaraq 2006-cı il yanvarın 1-dən etibarən vergi inzibatçılığı proseslərinin elektron qaydada aparılmasına imkan verən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) hazırlanmış və tətbiq edilməyə başlanılmışdır. AVİS istifadəyə verildiyi dövrdən vergitutmanın bütün sahələrində olduğu kimi, kameral vergi yoxlamaları da yeni inkişaf dövrünə qədəm qoymuşdur. Hər bir vergi bəyannaməsi və hesabat forması sistem vasitəsilə yoxlanılaraq, aşkar olunmuş uyğunsuzluqlar proqram təminatında avtomatik hazırlanan «Kameral vergi yoxlaması üçün zəruri olan sənədlərin (məlumatların) tələb edilməsi haqqında məktub»la rəsmiləşdirilir ki, həmin məktublara vergi ödəyiciləri tərəfindən verilmiş cavablardan asılı olaraq, kameral vergi yoxlamaları qanunamüvafiq qaydada başa çatdırılır. Həmçinin, kameral vergi yoxlamalarının keyfiyyətinin artırılması məqsədilə yeni sistem formalaşdırılmışdır ki, bunun nəticəsində aşkarlanmayan kənarlaşmalar müəyyən edilərək vergitutma bazasının genişləndirilməsinə səbəb olur.

Bundan başqa, təqdim edilmiş bəyannamələrin yoxlanılması yeni metodlardan, yəni üçüncü şəxslərin məlumatlarından, banklardan və digər dövlət təşkilatlarından, eləcə də vergi ödəyicilərinin məlumat bazasından istifadə etməklə aparılır ki, bu da kameral vergi yoxlamalarının səmərəliliyinin artmasına səbəb olur.

**- Gələcəkdə vergidən yayınma risklərinin aradan qaldırılması məqsədilə daha hansı addımların atılması nəzərdə tutulur?**

- Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi prioritet təşkil edəcək. Həmçinin, vergilər üzrə risklərin müəyyənləşdirilməsi, yoxlama üçün zəruri materialların təhlilinin mümkün qədər elektronlaşdırılması və yoxlamaların keyfiyyətinin artırılmasına istiqamətləndirilmiş tədbirlər görüləcəkdir.

**- Cari ildə kameral vergi yoxlamaları hesablanan vəsaitin məbləğinə necə təsir göstərmişdir?**

- 2013-cü ilin yanvar-oktyabr ayları ərzində kameral vergi yoxlamaları ilə əlavə hesablanmış vəsait ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,4% artmışdır. 2013-cü ilin yanvar-oktyabr ayları ərzində aparılmış kameral vergi yoxlamaları nəticəsində dövlət büdcəsinə ödənilmiş vəsait ötən ilin müvafiq dövrü ilə müqayisədə 36,6% çox olmuşdur.

**- Bəyannamələrin təqdim edilməsi ilə bağlı qanunvericiliyin tələblərini pozanlara qarşı hansı cəza tədbirlərinin tətbiqi nəzərdə tutulur?**

- Bəyannamələrin vaxtında təqdim edilməməsi qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. Vergi Məcəlləsinin 57.1-ci maddəsinə əsasən, vergi hesabatını və ya 16.2-ci maddədə nəzərdə tutulmuş arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarı ilə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Vergi bəyannaməsi üzürlü əsas olmadan təqdim edilmədikdə isə vergi orqanı Vergi Məcəlləsinin 67-ci maddəsinə müvafiq qaydada vergiləri hesablamaq hüququna malikdir.

***Müsahibəni hazırladı:***
**Rəşad SADIQOV**

# Azərbaycan biznesi üçün yeni qapılar açılır

## Azərbaycan və Avropa Birliyi arasında viza rejiminin sadələşdirilməsinə dair sazişin imzalanması iqtisadi əlaqələrin inkişafında yeni mərhələ olacaq

*Litvanın paytaxtı Vilnüsdə keçirilən III Şərq Tərəfdaşlığı Sammiti çərçivəsində Azərbaycan və Avropa Birliyi (AB) arasında viza rejiminin sadələşdirilməsinə dair saziş imzalanıb.*

Sənəd 2014-cü ilin ilk aylarında Brüsseldə keçiriləcək tədbirdə Azərbaycanla AB arasında readmissiya haqda saziş imzalandıqdan sonra qüvvəyə minəcək. Beləliklə, Azərbaycan gələn ildən Avropa ölkələri ilə sadələşdirilmiş viza rejiminin tətbiqinə başlaya bilər. AB komissarı Ştefan Füle bildirib ki, saziş Azərbaycanla AB arasında əməkdaşlığın inkişafında yeni mərhələ açacaq və bir sıra sahələrdə layihələrin həyata keçirilməsinə güclü zəmin yaradacaq.

Qeyd edək ki, ölkəmizdə elektron viza sisteminin qurulması və tətbiq olunması ilə bağlı hüquqi-texniki baza yaradılıb və bu sistemin işə düşməsi üçün heç bir əngəl yoxdur. Dövlət başçısının müvafiq sərəncamına əsasən, viza rejiminin sadələşdirilməsi ilə bağlı texniki tədbirlərin həyata keçirilməsi işləri başa çatmaq üzrədir. Ölkəmizin sərhəd-keçid məntəqələrində müasir informasiya texnologiyalarına əsaslanan idarəolunma sistemi qurulub, vətəndaşların təhlükəsizliyinin təmin edilməsinə şərait yaradan yüksək səviyyədə tədbirlərin görülməsi üçün infrastruktur mövcuddur.

Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyevin sözlərinə görə, AB-nin Viza Məcəlləsinə uyğun olaraq, Birliyə üzv ölkələrə vizaların vahid qaydada verilməsi bu sahədəki mövcud rejimin xeyli sadələşdirilməsi ilə nəticələnəcək. Azərbaycanın müəyyən qrup vətəndaşları isə AB üzvü olan ölkələrə viza almadan gedəcəklər, həmin ölkələrin bütün vətəndaşları isə Azərbaycana viza almadan səfər edəcəklər . Vətəndaşlarımızın AB-yə səfərləri zamanı tələb olunan vizanın qiymətləri aşağı salınacaq, bu istiqamətdə əlavə güzəştlər tətbiq ediləcək. Sadələşdirilmiş viza rejimi (elektron viza) iqtisadi, siyasi, sosial, hüquqi, humanitar sahələrdə əməkdaşlığın yeni istiqamətlərinin müəyyən olunmasına baza yaradacaq. Qarşılıqlı investisiyaların həcminin artırılması, iqtisadiyyatın bir çox sahələrində yeni layihələrin icrasına başlanılması, ticarət, azad iqtisadi zonalar çərçivəsində birgə iqtisadi layihələr, gömrük güzəştləri, qarşılıqlı investisiyalar, əmək miqrasiyası və digər sahələr üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Yeni viza rejimi bu istiqamətdə əlavə imkanlar açacaq.

Elektron viza rejiminin tətbiqi qarşılıqlı sərmayə axını üçün də mühüm əhəmiyyət kəsb edir. Bu sistem Azərbaycanda çalışmaq və investisiya qoymaq istəyən əcnəbi iş adamlarının ölkəyə gəlişini asanlaşdıracaq. Mövsümi xarakterli işlər, bisnes, turizm və digər sahələrə maraq göstərən xarici ölkə vətəndaşlarının bu müddətdə Azərbaycana böyük həcmdə pul sərf etməsi gözlənilir. Onların fəaliyyətini leqallaşdıran miqrasiya və sosial müdafiə xidməti orqanları Azərbaycan büdcəsinə vergi və rüsumların ödənilməsini təmin edəcəklər. Elektron vizanın ən mühüm üstünlüklərindən biri ölkəyə xarici turist axınını stimullaşdırmaqdır. Yeni rejim əcnəbi turistlərin Azərbaycana gəlmək üçün diplomatik korpusa getməsinə, sənədlər hazırlanmasına ehtiyacı aradan qaldıracaq. Ölkəmizə gəlmək istəyən şəxslər internet vasitəsilə elektron ərizə və digər sənədlərin formalarını göndərərək qısa müddətdə viza əldə edə biləcəklər. Yeri gəlmişkən, artıq yerli turizm şirkətləri elektron vizanı təmin etməyə hazırdırlar.

AB ilə Azərbaycan arasında əməkdaşlığın istiqamətlərindən biri də əmək miqrasiyasına dair qarşılıqlı razılaşma ilə bağlı anlaşmadır. Bunun sayəsində Azərbaycan vətəndaşları Avropa ölkələrində əməkçi və ya mövsümi miqrant kimi əmək fəaliyyəti ilə məşğul olmaq imkanları əldə edəcəklər. Qarşıdakı dövrdə müəyyən olunacaq formata əsasən, azərbaycanlı işçi qüvvəsinin 500 milyon əhalisi, 12 trilyon avrodan çox iqtisadiyyatı olan Avropa Birliyi məkanında fəaliyyət göstərmək imkanları həll ediləcək.

AB ilə yeni əməkdaşlıq formatı vergi sisteminin müasirləşməsində, texnologiyaların tətbiq edilməsində mühüm rol oynayacaq. İndiyədək tərəflər arasında «Tvinninq» layihəsi, vergi sistemində yeni texnologiyaların ən yaxşı nümunələrindən biri olan elektron audit sisteminin yaradılması sahəsində səmərəli əməkdaşlıq qarşıdakı mərhələdə əlaqələrin daha da genişlənməsi üçün əlverişli zəmin yaradır. Yeni tərəfdaşlıq strategiyası respublikamızın digər Avropa ölkələri ilə ikiqat vergitutmanın aradan qaldırılması sahəsində sazişlərin imzalaması baxımından da mühüm əhəmiyyət kəsb edir.

**Elbrus CƏFƏRLİ**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

Rakurs

# Hədiyyə və mirasların gəlir vergisinə cəlb olunması

Fiziki şəxslərin digər şəxslərdən aldıqları hədiyyə və miraslara, demək olar ki, bütün ölkələrdə gəlir kimi baxılır və qanunvericilikdə bu cür gəlirlərin vergiyə cəlb olunması məsələlərinə dair xüsusi normalar müəyyən edilmişdir. Hədiyyələr və miraslar əvəzsiz qaydada verildiyi üçün vergiyə cəlb olunması məsələlərində onların qohumluq əlaqəsi olan və ya əlaqəsi olmayan şəxslər tərəfindən verilməsi hallarının araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, təqvim ili ərzində alınmış hədiyyələrin tam dəyərinin müəyyən olunması verginin düzgün tutulması üçün tələb olunan vacib şərtlərdən biri sayılır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində fiziki şəxslərə verilən hədiyyə və mirasların vergiyə cəlb olunması məsələləri həmin Məcəllənin müvafiq maddələrində öz əksini tapmışdır. Fiziki şəxslərə hədiyyənin kim tərəfindən verilməsindən (qohumluq əlaqələrinin olub-olmamasından) asılı olaraq, Vergi Məcəlləsində hədiyyə və mirasların vergiyə cəlb olunması məsələsinə xüsusi yanaşma mövcuddur. Belə ki, Məcəllənin 98.2.2-ci maddəsinə əsasən, işəgötürənin öz işçisinə malı, işi və ya xidməti hədiyyə etdiyi halda, bu cür malların, işlərin və xidmətlərin bazar qiyməti ilə dəyəri fiziki şəxsin gəliri hesab olunur. Həmin Məcəllənin 102.1.3-cü maddəsində isə nəzərdə tutulmuşdur ki, hədiyyə və miraslar fiziki şəxsin ailə üzvlərindən (Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində nəzərdə tutulan şəxslərdən) alındığı halda, onların dəyəri gəlirə aid edilmir və vergi tutulmur.

*Hədiyyələr və miraslar əvəzsiz qaydada verildiyi üçün vergiyə cəlb olunması məsələlərində onların qohumluq əlaqəsi olan və ya əlaqəsi olmayan şəxslər tərəfindən verilməsi hallarının araşdırılması xüsusi əhəmiyyət kəsb edir*

Bunlarla yanaşı, Vergi Məcəlləsinin 102.1.3-cü maddəsində hədiyyə və miraslar vergiyə cəlb olunduğu hallarda, onların vergiyə cəlb edilməyən hədləri müəyyən olunmuşdur. Bu maddəyə əsasən, təqvim ili ərzində alınan hədiyyələrin 1000 manatadək olan hissəsi və mirasların dəyərinin 20000 manatadək olan hissəsi gəlir vergisindən azaddır.

Beynəlxalq təcrübədə də vergitutma normaları hədiyyə və mirasların kim tərəfindən verilməsi halından, habelə təqvim ili ərzində əldə edilən bu cür gəlirlərin məbləğindən asılı olaraq müəyyən olunmuşdur.

*Fransanın* qanunvericiliyinə görə, altı ildə bir dəfə valideynlərin öz övladlarına 156357 avro dəyərinə, hər nənə və ya babanın isə 31271 avro məbləğinə kimi olan əmlakını nəvələrinə heç bir vergi ödəmədən bağışlamaq hüququ vardır. Bu ölkənin qanunvericilinə əsasən, hədiyə və miraslardan əldə edilən gəlirdən tutulan verginin dərəcəsi 60%-ə kimi dəyişə bilər.

*Almaniyada* hədiyyə və miraslardan tutulan verginin dərəcələri 7%-dən 50%-ə kimi dəyişir. Dəyəri 350 min avroya kimi olan əmlaklar isə heç bir vergi ödənilmədən yaxın qohumlara bağışlanıla bilər.

*İtaliyada* yaxın qohumlara verilən hədiyyə və miraslardan 4%, uzaq qohumlardan 6%, digərlərindən isə 8% vergi tutulur.

*İspaniyada* dərəcələr regiondan asılı olaraq 7%-dən 34%-ə kimi fərqlənir. Misal üçün, Kataloniya və Qalisiya əyalətlərində bu vergi Madrid və Valensiyaya nisbətən yüksək, Andalusi və Asturiyadan isə aşağıdır.

*Çexiyanın* qanunvericiliyinə əsasən, hədiyyəni verən bu ölkənin rezidenti, hədiyyəni alan isə qeyri-rezident olduqda, vergi hədiyyəni verəndən tutulur. Hədiyyəni alanın və verənin hər biri ölkənin rezidenti olduğu təqdirdə isə vergi hədiyyəni alandan tutulur. Bu zaman verginin dərəcəsi 1%-dən 40%-ə kimi dəyişə bilər.

*Bolqarıstanda* hədiyyə valideyndən övlada verildiyi halda, vergi tutulmur. Digər hallarda isə vergi dərəcəsi 0,01%-dən 7%-ə kimi olur.

*İsraildə* hədiyyə və miraslar vergiyə cəlb edilmir.

*Latviyada* da hədiyyələrdən vergi tutulmur, ancaq bu əməliyyatlara görə əmlakın kadastr qiymətinin 3%-i həcmində dövlət rüsumu ödənilməlidir. Əmlak yaxın qohuma verildiyi halda isə dövlət rüsumu 0,5% təşkil edir.

*Rusiyada* mirasdan vergini ödəmək vəzifəsi minimum aylıq əməkhaqqının qanunla müəyyən edilmiş məbləğinin 850 misli, hədiyyələrin dəyəri isə 80 mislindən artıq olduqda yaranır. Bu zaman vergi həmin məbləğlərin artıq olan hissəsindən tutulur. Mirasların vergiyə cəlb olunması zamanı vergi ödəyiciləri üç qrupa bölünür: birinci dərəcəli varislər, ikinci dərəcəli varislər və digər varislər. Miras alanın hansı qrupa aid edilməsindən asılı olaraq müxtəlif vergi dərəcələri tətbiq edilir. Bundan əlavə dərəcələr, həmçinin, miras qalan əmlakın dəyərindən də asılı olaraq müəyyən edilir. Belə ki, miras qalan əmlakın dəyəri minimum aylıq əməkhaqqının 850 mislindən 1700 mislinə qədər olduğu halda, birinci dərəcəli varislər əmlakın dəyərinin minimum aylıq əmək haqqının 850-mislindən artıq olan hissəsindən 5%-i, ikinci dərəcəli varislər - 10%, digər varislər isə - 20% həcmində vergi ödəyirlər. Əmlakın dəyəri artdıqca müvafiq olaraq verginin dərəcələri də artır.

Rusiyada qohumluq əlaqələrindən asılı olaraq hədiyyələrin vergiyə cəlb olunması iki fərqli qaydada həyata keçirilir. Hədiyyələr uşaqlar və valideynlər arasında verilərkən hədiyyənin dəyərinin minimum aylıq əmək haqqının 80 mislindən artıq olan hissəsindən 3%, hədiyyələr digər fiziki şəxslər arasında verilərkən 10% dərəcə ilə vergi ödənilir. Verginin dərəcələri hədiyyənin dəyərindən də asılı olaraq dəyişir. Maksimal dərəcələr hədiyyənin dəyəri minimum aylıq əməkhaqqının 2550 mislindən artıq olduqda tətbiq olunur. Bu dərəcə uşaq və valideynlər arasında verilən hədiyyələr üçün 15%, digər fiziki şəxslər arasında verilən hədiyyələr üçün isə 40% həcmində nəzərdə tutulur.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Fiziki şəxsin xeyriyyə fondu təsis etməsi

***Mən fiziki şəxs olaraq xeyriyyə fondu yarada bilərəmmi? Mümkün olduğu halda hansı sənədləri hansı orqana təqdim etməliyəm?***

«Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Qanunun 2.2-ci maddəsinə əsasən fond - üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədləri daşıyan qeyri-hökumət təşkilatıdır.

Qanunun 9.1-ci maddəsində qeyd edilmişdir ki, qeyri-hökumət təşkilatlarının təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına (gənclərin ictimai birliklərinin təsisçiləri - 16 yaşına) çatmış fiziki şəxslər ola bilərlər.

Qanunun 2.2-ci və 9.1-ci maddələrinin müddəalarından göründüyü kimi, fond bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxs tərəfindən təsis edilə bilər.

Qanunun 16.1-ci maddəsinə əsasən, qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı (Ədliyyə Nazirliyi) tərəfindən hüquqi şəxslərin qeydiyyatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Hüquqi şəxs statusu almaq istəyən qurumun dövlət qeydiyyatına alınması barədə müraciətin edilməsi qaydası «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 5-ci maddəsi ilə tənzimlənir. Həmin maddəyə əsasən, hüquqi şəxs statusu almaq istəyən qurumun dövlət qeydiyyatına alınması üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət edilməlidir.

Ərizə təsisçi (bir neçə təsisçi olduqda isə bütün təsisçilər) və ya onun (onların) müvafiq qaydada vəkil etdiyi şəxs tərəfindən imzalanır və notariat qaydasında təsdiqlənir.

Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

- təsis sənədləri - hüquqi şəxs statusu almaq istəyən qurumun təsisçisi (təsisçiləri) və ya onun (onların) səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilmiş nizamnaməsi, habelə həmin Qanunun məqsədləri üçün, həmin qurumun təsis edilməsi, nizamnaməsinin təsdiq edilməsi və idarəetmə orqanlarının formalaşdırılması barədə qərarlar (təsis sənədləri Mülki Məcəllədə nəzərdə tutulmuş, habelə təsisçilər tərəfindən zəruri hesab edilən digər məsələləri əks etdirməli və bütün təsisçilər (və ya onların səlahiyyətli nümayəndələri) tərəfindən imzalanmalıdır);
- dövlət rüsumunun ödənilməsi haqqında sənəd;
- təsisçi hüquqi şəxs olduqda - onun dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışın) və nizamnaməsinin notariat qaydasında təsdiq olunmuş surəti;
- təsisçi fiziki şəxs olduqda - onun şəxsiyyətini təsdiq edən sənədin surəti;
- qeyri-hökumət təşkilatının təsisçisi (təsisçiləri) Azərbaycan Respublikasında daimi yaşamaq hüququ olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduqda - onların daimi yaşamaq hüququnu təsdiq edən sənəd;
- hüquqi şəxs statusu almaq istəyən qurumun hüquqi ünvanını təsdiq edən sənəd;
- qanuni təmsilçinin təyin edildiyi halda onun şəxsiyyətini təsdiq edən sənədin surəti;
- fondlarda nizamnamə kapitalının ödənilməsini təsdiq edən sənəd;
- təsisçilərinin əcnəbilər və ya xarici hüquqi şəxslər olduğu qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin rəhbərlərinin müavinlərinin təyin olunması barədə sənəd.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2013-cü ilin on ayı ərzində istehsal edilmiş ümumi daxili məhsulun həcmi keçən ilin eyni dövrünə nisbətən **5,7%** artaraq **47.6 milyard manata** çatmışdır.
- Ölkə əhalisi tərəfindən əldə edilmiş **29.1 milyard manatlıq** gəlirin **68%-i** son istehlak xərclərinə, **9%-i** vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının, **1,7%-i** kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, **21,3%-i** isə yığıma yönəldilmişdir
- Ticarət əməliyyatlarının **11,1%-i** MDB-yə üzv dövlətlər ilə, **88,9%-i** isə digər ölkələrlə aparılmışdır

# Elektron ticarətə maraq artır

*Bu gün insanlar onlayn formada, internet vasitəsilə istənilən malı sifariş edib öz evlərinə qədər gətirdə bilirlər. Dünyanın inkişaf etmiş ölkələrində aparılan ticarətin yarıdan çoxu məhz elektron yolla həyata keçirilir. Burada alıcılar üçün əsas üstünlük əlavə vəsaitə və vaxta, satan tərəf üçünsə işçilərə və parakəndə ticarət obyektinin saxlanmasına çəkilən xərclərə qənaət etməkdir.*

### Azərbaycanda e-ticarətin səviyyəsi aşağıdır

Bu gün Azərbaycanda aparılan ticarət əməliyyatlarının cəmi 3%-ə qədəri elektron şəkildə həyata keçirilir. ABŞ-da bu rəqəm 75%, Avropa ölkələrində isə 60%-dir. Hazırda Azərbaycanda elektron ticarət vasitəsilə, əsasən, restoranlardan yemək, iri marketlərdən ərzaq, parfümeriya məhsulları, kiçik elektron cihazlar, turizm şirkətlərindən isə biletlər və s. sifariş edilir.

Azərbaycanda elektron ticarətlə məşğul olan sahibkarlar əhalinin bu üsulla alış-verişə az meyil etməsinin səbəbini əksər insanların hələ də ödədikləri pulun tam şəkildə həmin şirkətə çatacağına inanmadıqları ilə izah edirlər. Ölkədə ticarətin inkişafını ləngidən digər bir amil isə satılan mallara verilən zəmanətlə bağlıdır. Məsələn, vətəndaş və ya alıcı elektron ticarətdən istifadə etməklə hansısa məhsulu alırsa və həmin məhsul keyfiyyətli deyilsə, onun geri qaytarılması mexanizmi, demək olar ki, yoxdur. Çünki elektron ticarətlə məşğul olanların bəzilərinin konkret ofisi olmadığından, malın geri qaytarılması və malın keyfiyyətsiz olduğunun sübut edilməsi kifayət qədər böyük vaxt tələb edir. Bununla belə, ölkəmizdə elektron ticarətə maraq artır.

### Əhalinin maarifləndirilməsinə ehtiyac var

Son vaxtlar «Facebook» sosial şəbəkəsi qanunları, əhalisi və s. olan reklam bazarına və nəhayət, iqtisadiyyata, geniş bazar imkanlarına malik virtual bir məkana çevrilməkdədir. «Facebook»un onlayn alış-veriş mərkəzi dünyanın aparıcı alış-veriş saytlarını - Amazon, Ebay və s. saytlarını ciddi şəkildə qorxutmaqdadır. Çünki «Facebook»un qurduğu sistem yeni nəsil onlayn alış-veriş mərkəzidir və onun milyonlarla müştəriləri mövcuddur. Ekspertlərin qənaətinə görə, Azərbaycanda da insanların əksəriyyəti onlayn alış-verişdə «Facebook»a üstünlük verirlər.

Elektron xidmətlər sahəsində təcrübəsi olan «GoldenPay» şirkətinin rəhbəri Fərid İsmayılzadənin sözlərinə görə, elektron xidmətlər dövlət orqanı ilə vətəndaş arasında qarşılıqlı münasibətlərin səmərəliliyinin və keyfiyyətinin artırılmasına, baş verə biləcək bütün neqativ halların qarşısının alınmasına, dövlət idarəetmə sisteminin ən müasir standartlar səviyyəsinə yüksəlməsinə imkan yaradır. Həmçinin, elektron xidmətlər vətəndaşların tələbatlarına, iqtisadi effektivliyə, vətəndaş nəzarətinin açıq olmasına səbəb olur. Bu sistem dövlət strukturlarının müasir informasiya texnologiyalarından istifadə etməklə istehlakçılara bilavasitə informasiya xidmətlərinin təşkilinə münbit şərait yaradır.

Fərid İsmayılzadənin sözlərinə görə, son illər Azərbaycanda inkişaf tendensiyası və müasir texnologiyalardan istifadənin hüdudlarının genişlənməsi, bir çox xidmətlər kimi, onlayn ticarətə də tələbi artırıb və bu sahədə hər il müsbət dinamika müşahidə olunmaqdadır. Çünki elektron ticarət vətəndaşlar üçün rahatlığı təmin edir. Ancaq hazırda əsas məqsədlərdən biri əhalinin elektron ödəmələr barədə məlumatlandırılması, maarifləndirilməsini gücləndirmək, onlarda onlayn ödəniş vərdişlərini formalaşdırmaq üçün səyləri artırmaqdır.




### E-ticarətlə bağlı yeni veb-portallar yaradılacaq

Azərbaycanda «Elektron ticarət haqqında» Qanun 2005-ci ildə qəbul olunub. Lakin internet üzərindən ödəmə sistemi olmadığından, Azərbaycanda bu sahədə ilk addımlar 2008-ci ildə atılıb. Bundan başqa, «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nın həyata keçirilməsi üzrə Tədbirlər Planında ölkədə elektron ticarətin yaradılması sahəsində işlərin intensivləşdirilməsi barədə İqtisadi İnkişaf Nazirliyinə *(indi İqtisadiyyat və Sənaye Nazirliyi)* tapşırıqlar verilib. Nazirlikdən verilən məlumata görə, tapşırığın icrasını təmin etmək üçün sahibkarların, xüsusilə də kənd təsərrüfatı məhsulları istehsalçılarının sərbəst bazara çıxışının dəstəklənməsi məqsədilə Almaniyanın Texniki Əməkdaşlıq Cəmiyyətinin (GTZ) «Özəl sektora dəstək proqramı» çərçivəsində elektron ticarətlə bağlı veb-portal yaradılır. Həmin portallar istifadəyə verildikcə bu sahədə ictimaiyyətin, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalçılarının və sahibkarların məlumatlandırılması və təlimlərin keçirilməsi ilə bağlı tədbirlər görüləcək.

### E-ticarətə vergi nəzarəti təkmilləşdirilir

Elektron ticarətdə «elektron pulların» tətbiqi bu sahəyə vergi nəzarətinin həyata keçirilməsini zəruri edir. Elektron ticarət həyata keçirən bir sıra şəxslər hesab edirlər ki, onların fəaliyyəti virtual aləmdə olduğu üçün vergiləri ödəməyə bilərlər. Ancaq vergi orqanlarının qənaətinə görə, internet, sadəcə, satıcı ilə alıcı arasında əlaqə növüdür və onlar arasında aparılan sövdələşmələrin nəticəsi üzrə yaranan vergi öhdəliklərini ləğv edə bilməz.

Bu əməliyyatların transmilli olması isə vergi nəzarətinə əlavə problemlər yaradır. Təcrübə göstərir ki, bir çox hallarda elektron ticarət əməliyyatları həyata keçirən şəxsin, yəni satıcının bir dövlətin, alıcının isə digər dövlətin rezidenti olması, serverin üçüncü bir dövlətdə yerləşməsi vergiyə cəlb edilmədə problemlər yaradır. Bununla bağlı bir çox dövlətlərin vergi orqanlarının qarşısında duran əsas vəzifə elektron ticarət əməliyyatları həyata keçirən şəxsin rezidentliyinin və elektron ticarət əməliyyatlarının sənədləşməsinin aparılmasının təmin edilməsidir.

Vergilər Nazirliyində Azərbaycanda elektron ticarətin vergiyə cəlb olunması ilə bağlı təkliflər paketi hazırlanır. Hazırda bütün dünyada geniş yayılan elektron ticarətin populyarlaşması fonunda nazirlik Azərbaycanda da bu sahənin vergiyə cəlb olunması ilə bağlı işlər aparır. Elektron ticarət sahəsində qabaqcıl təcrübənin öyrənilməsi istiqamətində müəyyən işlər görülür, ayrı-ayrı Avropa ölkələrinin təcrübələri araşdırılır.

**Rəşad SADIQOV**

# Qiymətli kağızlar bazarı inkişaf mərhələsində

*Azərbaycanda qiymətli kağızlar bazarının və onun infrastrukturunun inkişafının təmin olunması, bazarın tənzimlənməsi ilə bağlı normativ aktların qəbul edilməsi, qiymətli kağızların dövriyyədən çıxarılması və ləğv edilməsi qaydalarının müəyyənləşdirilməsi və digər məsələlər Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK) tərəfindən tənzimlənir.*

### III rübün nəticələri

Komitənin açıqladığı statistik məlumatlara əsasən, qiymətli kağızlar bazarının həcmində artım müşahidə edilir. Bu ilin 9 ayı ərzində qiymətli kağızlar bazarının həcmi orta hesabla aylıq 49% artaraq 5,5 milyard manat təşkil etmişdir. Özəl və dövlət şirkətlərinin korporativ qiymətli kağızlar bazarından maliyyələşməsi, eləcə də korporativ alətlərin təkrar ticarətinin artması korporativ qiymətli kağızlar bazarında həm əqdlərin sayının, həm də əməliyyatların həcminin artımı ilə nəticələnmişdir. Korporativ qiymətli kağızlar bazarında əqdlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,1%, həcmi isə 27% artaraq 1,1 milyard manat təşkil etmiş və bazarın bu seqmentində orta gündəlik ticarətin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 27% artaraq 6,4 milyon manat təşkil etmişdir.

Hesabat dövründə bütövlükdə səhm bazarında əqdlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 7%, həcmi 13% artaraq 448,1 milyon manat, səhm bazarının orta gündəlik ticarət həcmi isə 13% artaraq 2,5 milyon manat olmuşdur.

İlin ilk doqquz ayı ərzində Azərbaycan İpoteka Fondunun (AİF) təminatlı istiqrazlarının sabit qaydada yerləşdirilməsi və bununla yanaşı, özəl sektorun təmsilçilərinin borc alətləri vasitəsi ilə maliyyələşməyə marağının artması korporativ istiqrazlar bazarının dinamikasına müsbət təsir göstərmişdir. Bu bazar vasitəsilə cəlb edilmiş vəsaitlərin həcmi 3%, təkrar əməliyyatların həcmi 67% artmış və nəticədə əqdlərin sayı 29%, həcmi isə 38% artaraq 691,9 milyon manat təşkil etmişdir. AİF-in istiqrazlar bazarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə artaraq 442,9 milyon manata çatmışdır.

AİF vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi ilə əlaqədar 2272 ipoteka kağızı dövlət qeydiyyatına alınmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə say üzrə 18% çoxdur. Eyni zamanda, hesabat dövründə 17,8 milyon manat məbləğində (ötən ilin müvafiq göstəricisindən 80% çox) 51 veksel buraxılışı dövlət qeydiyyatına alınmışdır. İlin ilk üç rübü QKDK-nın ünvanına 411 səhmdar cəmiyyəti ilə bağlı səhmdarların hüquqlarının pozulması barədə 242 şikayət ərizəsi və 17 müraciət daxil olmuşdur. Aparılmış araşdırmalar nəticəsində səhmdar cəmiyyətlərinin 60-nın fəaliyyətində ciddi qanun pozuntuları aşkar olunmuş, onlara qarşı 60.350 manat məbləğində inzibati cərimə tətbiq edilmiş və 100 səhmdar cəmiyyətinin fəaliyyətində aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması haqqında göstərişlər verilmişdir.



### Cəzalar sərtləşdirilib

Yeri gəlmişkən deyək ki, İnzibati Xətalar Məcəlləsində edilmiş son dəyişikliklərə görə, qiymətli kağızlar bazarında investorların hüquqlarının pozulmasına və ya qanunsuz olaraq hər hansı şəkildə məhdudlaşdırılmasına görə vəzifəli şəxslər dörd yüz manatdan altı yüz manatadək, hüquqi şəxslər dörd min manatdan altı min manatadək cərimə ediləcək. Qiymətli kağızların emissiyası və buraxılışı qaydalarının pozulmasına görə cəza tədbiri kimi fiziki şəxslərə xəbərdarlıq edilir və ya iki yüz manatdan dörd yüz manatadək cərimə müəyyənləşdirilir. Vəzifəli şəxslərə isə xəbərdarlıq edilir və ya altı yüz manatdan səkkiz yüz manatadək, hüquqi şəxslərə üç min manatdan beş min manatadək cərimə kəsilir.

Qiymətli kağızlar bazarında broker fəaliyyətinin həyata keçirilməsi qaydalarının pozulmasına görə vəzifəli şəxslər altı yüz manatdan yeddi yüz manatadək, hüquqi şəxslər üç min manatdan dörd min manatadək, diler fəaliyyətinin həyata keçirilməsi qaydalarının pozulmasına görə vəzifəli şəxslər altı yüz manatdan yeddi yüz manatadək, hüquqi şəxslər üç min manatdan dörd min manatadək, klirinq fəaliyyətinin həyata keçirilməsi qaydalarının pozulmasına görə vəzifəli şəxslər altı yüz manatdan yeddi yüz manatadək, hüquqi şəxslər üç min manatdan dörd min manatadək cərimə edilirlər.

Qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyətin həyata keçirilməsi qaydalarının pozulmasına görə vəzifəli şəxslər yeddi yüz manatdan səkkiz yüz manatadək, hüquqi şəxslər beş min manatdan altı min manatadək, depozitar fəaliyyətinin həyata keçirilməsi qaydalarının pozulmasına görə-vəzifəli şəxslər yeddi yüz manatdan səkkiz yüz manatadək, hüquqi şəxslər beş min manatdan altı min manatadək cərimə ödəməlidirlər.

Aktivlərin idarə edilməsi üzrə fəaliyyətin həyata keçirilməsi qaydalarının pozulmasına görə vəzifəli şəxslər yeddi yüz manatdan səkkiz yüz manatadək, hüquqi şəxslər yeddi min manatdan səkkiz min manatadək, Fond birjası fəaliyyətinin həyata keçirilməsi qaydalarının pozulmasına görə vəzifəli şəxslər yeddi yüz manatdan səkkiz yüz manatadək, hüquqi şəxslər isə səkkiz min manatdan doqquz min manatadək cərimə edilirlər.

**AYTƏN**

# Dinamik inkişafa təminat

*İqtisadiyyatın aynası, davamlı inkişafın barometri sayılan büdcənin real göstəriciləri və artım səviyyəsi istənilən dövlətdə təkcə vətəndaşların yaşayış səviyyəsini deyil, ümumən hökumətin fəaliyyətinin səmərəliliyini, faydalı iş əmsalını dəyərləndirməyə imkan verir. Bu ali maliyyə sənədində dövlətin perspektiv inkişafına hesablanan mühüm dövlət proqramlarının, fərman və sərəncamların realizəsi üçün də zəruri maliyyə vəsaitləri nəzərdə tutulur.*




Son 10 il ərzində dövlət büdcəsi gəlirlərinin strukturu Azərbaycanın real inkişaf dinamikası barədə dolğun mənzərə yaradır. Səmərəli iqtisadi islahatların nəticəsi olaraq dövlət büdcəsi gəlirlərinin illik artım tempi dünya üzrə ən yaxşı göstəricilərdən sayılır. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, 2003-cü ildən Azərbaycanda büdcə gəlirlərinin orta illik artımı 20-30% təşkil edib ki, bu da regionda ən yüksək göstəricilərdən sayılır. Hazırda respublikamız 2013-cü ilin dövlət büdcəsi ilə Cənubi Qafqazın ümumi büdcəsinin 76%-nə sahiblik edir. Bu il büdcə gəlirləri 2003-cü illə müqayisədə təxminən 16 dəfə çox - 19 milyard 154 milyon manat təşkil etməlidir.

Milli Məclisdə təsdiq edilmiş «Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında» Qanun respublikamızın qarşıya qoyduğu strateji hədəflərə doğru inamla irəliləyən ölkə olduğunu bir daha təsdiqləyir. «Büdcə sistemi haqqında» Qanuna, habelə Nazirlər Kabinetinin «Dövlət büdcəsinin tərtibi və icrası qaydaları»na uyğun olaraq hazırlanmış ali maliyyə sənədinin strateji hədəfləri qeyri-neft sektorunun inkişafı; makroiqtisadi sabitliyin təmin edilməsi; iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi; ixrac qabiliyyətinin artırılması; regionların davamlı və tarazlaşdırılmış inkişafının təmin edilməsi; sosialyönümlü siyasətin prioritetliyinin qorunub saxlanılması; maliyyə intizamının gücləndirilməsi; şəffaflığın artırılmasıdır.

Dövlət büdcəsinin tərtibi zamanı dünyada gedən iqtisadi proseslərin ölkə iqtisadiyyatına mümkün təsirləri də nəzərə alınıb. Respublikanın makroiqtisadi proqnoz göstəricilərinə əsasən, qarşıdakı ildə 58,6 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsalı gözlənilir ki, bu da 5,2%-lik artım deməkdir. Neft sektoru üzrə ÜDM-in 1,5% azalması fonunda qeyri-neft sektorunda əlavə dəyərin 36 milyard manat və ya cari illə müqayisədə 10% real artımı proqnozlaşdırılır.

2014-cü ildə ÜDM-də qeyri-neft sektorunun xüsusi çəkisi 61,5% həddində nəzərdə tutulur. Bu, 2012-ci ilin yekununa nisbətən 8,8%; 2013-cü ilin proqnozuna görə 3,1% çoxdur. Müqayisə üçün onu da bildirək ki, büdcədə qeyri-neft ÜDM-in xüsusi çəkisi 2008-ci ildə 44,6%; 2009-cu ildə 54,9%; 2010-cu ildə 44,4%; 2011-ci ildə 44,8%; 2012-ci ildə 52,7% təşkil edib.

Gələn il dövlət büdcəsi gəlirlərinin sabitləşdirilməsi, qeyri-neft sektoru və digər real mənbələr hesabına büdcəyə əlavə daxilolmaların cəlb edilməsi nəzərdə tutulur. Büdcə xərclərinin daha çox sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması nəticəsində əldə olunacaq resurslar hesabına formalaşdırılması nəzərdə tutulur. Dövlət büdcəsi gəlirlərinin yığım əmsalının artırılması, mülkiyyət və yol vergilərinin dərəcələrinin optimallaşdırılması, əməkhaqqının gəlir vergisinin vergi tutulmayan məbləğinin yaşayış minimumuna yaxınlaşdırılması, vergitutma bazasının genişləndirilməsi, vergidən yayınma hallarının qarşısının alınması tədbirləri davam etdiriləcək.

Gələn il qeyri-neft sektorunda yeni istehsal və xidmət müəssisələrinin yaradılması, sənayeləşmənin sürətləndirilməsi və sənaye istehsalının artırılması üçün maliyyə təminatının yaqələndirilir. Bu ilə nisbətən 2014-cü il dövlət büdcəsi xərclərində sosial müdafiə və sosial təminat xərcləri 14,3%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərcləri 13,9%, elm xərcləri 12,5%, səhiyyə xərcləri 8,4%, təhsil xərcləri 8%, mədəniyyət, incəsənət, kütləvi informasiya və idman xərcləri 7,5%, müdafiə xərcləri 7,1%, iqtisadi fəaliyyət xərcləri 19%, nəqliyyat və rabitə xərcləri 8,7%, mənzil və kommunal təsərrüfatı xərcləri 14,6% artıb.

Dövlət büdcəsinin gəlirlərinin formalaşmasında 2013-cü ilə nisbətən gələn il Dövlət Neft Fondundan transfertlər 2 milyard manat və ya 17,8% azaldılıb ki, bu da hökumətin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasətin səmərəliliyini xarakterizə edən əsas göstəricilərdən biri də budur ki, 2014-cü ildə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7,1 milyard və ya cari illə müqayisədə 702 milyon manat (2013-cü illə müqayisədə 11% çox) çox vəsaitin daxil olması nəzərdə tutulub. Bu il qanunvericiliklə vergi güzəşti əldə etmiş vergi ödəyiciləri dairəsinin nisbətən genişləndiyi bir şəraitdə bu nəzərəçarpacaq artım, ilk növbədə, azad sahibkarlığın inkişafı, habelə liberal vergi mühiti və çevik vergi inzibatçılığı hesabına təmin ediləcək.

**Gələn il dövlət büdcəsi gəlirlərinin sabitləşdirilməsi, qeyri-neft sektoru və digər real mənbələr hesabına büdcəyə əlavə daxilolmaların cəlb edilməsi nəzərdə tutulur**

radılması məsələləri diqqət mərkəzində olacaq. Bütün bunların nəticəsi kimi gələn ilin dövlət büdcəsində özəl sektorun ÜDM-də payının 83,2%-ə yüksələcəyi gözlənilir. Bu, 2014-cü ildə ölkədə biznes mühitinin daha da liberallaşacağına, özəl sektorun inkişafı üçün daha əlverişli imkanların yaranacağına dəlalət edir.

2014-cü ilin dövlət büdcəsinin strukturu hökumətə gələn il üçün qarşıya qoyulmuş hədəfləri reallaşdırmağa geniş imkanlar açır. 2014-cü ildə dövlət büdcəsinin gəlirləri 18 milyard 384 milyon manat, xərcləri isə 20 milyard 63 milyon manat nəzərdə tutulur. Dövlət büdcəsi xərclərinin 54,2%-i cari xərclərə, 41,9%-i əsaslı xərclərə, 3,9%-i dövlət borcuna xidmətlə bağlı xərclərə yönəldiləcək. 2014-cü il dövlət büdcəsinin xərclərinin artımı 2013-cü ildə büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarda çalışan işçilərin əməkhaqlarının, ölkə üzrə bir sıra sosial ödənişlərin artırılması, yeni təşkilatların fəaliyyətə başlaması, yeni dövlət proqramlarının təsdiqi və yeni fondların təsis edilməsi ilə əla-

2014-cü ildə dövlət əsaslı vəsait qoyuluşu xərclərinə 6,3 milyard vəsait ayrılması da insanyönümlü layihələrin reallaşdırılmasına imkan yaradır. Gələn ilin dövlət büdcəsində diqqəti çəkən mühüm məqamlardan biri regionların maliyyələşməsində yeni mexanizmlərin tətbiqi, yerli büdcələrə dotasiyaların 1,8% azaldılmasıdır. Sumqayıt, Şirvan və Abşeron rayonları ilə yanaşı, Mingəçevir şəhəri və İmişli rayonunun xərcləri də öz gəlirləri hesabına formalaşdırılmalıdır.

Ümumilikdə, bütün bunlar büdcə gəlirlərinin neft gəlirləri hesabına deyil, büdcə-vergi siyasəti üzrə reallaşdırılmasına, qeyri-neft gəlirlərinin ümumi daxili məhsulda və büdcə gəlirlərində xüsusi çəkisinin artırılmasına xidmət edən praktiki addımlardır.

**Samir MUSTAFAYEV**

# Regionlarda e-ödənişlər üçün yeni imkanlar

*Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) 2014-cü ildə Azərbaycanın regionlarında internet xidmətlərinin yaxşılaşdırılmasını nəzərdə tutan genişzolaqlı internetin inkişafı layihəsinin («Evlərə optika») tam şəkildə tətbiqinə başlayacaq. Bir neçə ay pilot layihə kimi tətbiqinə start verilən bu layihənin gələn ildən bütün bölgələri əhatə etməklə həyata keçirilməsi nazirliyin başlıca məqsədlərindən biridir.*

Rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə bildirib ki, 3 il ərzində başa çatdırılması nəzərdə tutulan layihə çərçivəsində genişzolaqlı internet istifadəçilərinin sayının ümumi istifadəçilərin 90%-nə çatdırılması planlaşdırılır.

RİTN İnformasiya cəmiyyətinin inkişafı şöbəsinin müdiri İsfəndiyar Əliyevin sözlərinə görə, qarşıdakı illərdə Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı həyata keçirilən məqsədli proqramların və layihələrin miqyasının artırılması nəzərdə tutulur ki, burada ən mühüm layihələrdən biri genişzolaqlı internet şəbəkəsinin qurulmasıdır. Bir neçə ay əvvəl start verilən bu layihənin əsas hədəfi 2016-cı ilə qədər ən ucqar kənd yerləri də daxil olmaqla ölkənin bütün yaşayış məntəqələrinin yüksəksürətli genişzolaqlı internet xidmətlərinə çıxışının təmin olunmasını başa çatdırmaqdır. Üç il ərzində icra olunacaq layihəyə təxminən 350 milyon manat vəsait sərf olunacaq. Layihənin maliyyələşdirilməsi Dövlət Neft Fondu tərəfindən yerinə yetiriləcək. Layihəyə əsasən, genişzolaqlı optik şəbəkənin qurulması üçün 2014-cü ildə 100 milyon manatdan çox vəsait sərf olunacaq. 2015 və 2016-cı illərdə də həmin həcmdə əlavə maliyyənin ayrılması nəzərdə tutulur.

Regionlarda İKT-nin və elektron xidmətlərə çıxışların ən yüksək səviyyəyə çatdırılması üçün layihə çərçivəsində telekommunikasiya şəbəkəsinin müxtəlif istiqamətlərinə, uzaq yaşayış məntəqələrinə və magistral şəbəkədə ATS-dən 2 km-dən çox məsafədə yerləşən telefon şkaflarına fiber-optik kabel xətlərinin çəkilişi, kommunikasiya və transmissiya qurğularının yeni xidmətlərə uyğun modernləşdirilməsi, telefonlaşdırılmamış yaşayış massivlərinin, çoxmərtəbəli binaların, qismən telefonlaşdırılmış yaşayış məntəqələrinin ən yeni texnologiyalarla təchiz edilməsi nəzərdə tutulur. Layihə başa çatdıqdan sonra respublikamızda internetin sürətində əhəmiyyətli dəyişikliklər baş verəcək. Əhali Bakı şəhərində 30-100 Mbit/saniyə, digər iri şəhər və rayon mərkəzlərində isə 10-30 Mbit/saniyə, qəsəbə və kənd yerlərində 10 Mbit/saniyə və daha çox sürətli genişzolaqlı internetlə təmin ediləcək.

Qeyd olunan layihənin reallaşdırılması ölkəmizin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyasının təmin edilməsinə, «Elektron hökumət»lə bağlı islahatların miqyasının genişləndirilməsinə və yeni qabaqcıl texnologiyaların tətbiqinə stimul verəcək. Layihə internet xidmətlərinin qiymətlərinin aşağı salınmasına və mobil rabitə bazarının inkişafına müsbət təsir göstərəcək.

Yeni layihə elektron xidmətlərin və eödənişlərin səviyyəsinə də təsirsiz qalmayacaq. Layihə başa çatdıqdan sonra ölkədə elektron xidmətlərdən istifadə səviyyəsi 40-50%-ə çatacaq. Hazırda bu rəqəm 10% civarındadır. Ümumiyyətlə, İKT-nin inkişafına dair məqsədli proqramların icrası sayəsində elektron xidmətlərin maksimum səviyyəyə çatdırılması ilə 2020-ci ilədək Azərbaycanda e- xidmətlərdən istifadə edənlərin sayının 100%-ə çatdırılacağı proqnozlaşdırılır.

**2020-ci ilədək Azərbaycanda e-xidmətlərdən istifadə edənlərin sayının 100%-ə çatdırılacağı proqnozlaşdırılır**




Həyata keçiriləcək layihədən ölkə ərazisində fəaliyyət göstərən özəl operatorlar və internet provayderləri bərabər səviyyədə istifadə edə biləcəklər. Bu, İKT sektorunda rəqabət mühitinin daha da yaxşılaşdırılmasına, idarəetmədə şəffaflığın təmin edilməsinə səbəb olacaq, bütün ödənişlərin internet üzərindən aparılmasına şərait yaradacaq.

**Elbrus CƏFƏRLİ**

# Sığorta-pensiya sistemi təkmilləşdirilir

Ölkəmizdə sığorta-pensiya sahəsində həyata keçirilən islahatlar bu sahənin inkişafının sürətləndirilməsində, pensiya yaşına çatmış insanların maraqlarının müdafiəsində böyük rol oynayır. Yeni sığorta-pensiya sisteminin fəaliyyət göstərdiyi 2006-cı ildən indiyədək ölkə Prezidenti tərəfindən əmək pensiyalarının baza hissəsinin artırılması ilə bağlı 8, sığorta hissəsinin indeksləşdirilməsi ilə bağlı 7 sərəncam verilib. Sonuncu sərəncamla pensiyanın baza hissəsi cari ilin sentyabr ayının 1-dən 17,6% artırılaraq 100 manata çatdırılmışdır. Beləliklə, sentyabr ayının 1-dən Azərbaycanda əmək pensiyalarının baza hissəsi 128 ABŞ dolları təşkil etmişdir ki, bununla da ölkəmiz MDB məkanında 3-cü yerdə qərarlaşmışdır.

Dövlət Sosial Müdafiə Fondunun məlumatına görə, hazırda pensiyaların orta aylıq məbləği pensiyaçılar üçün yoxsulluq həddini 1,7 dəfə üstələyib. Azərbaycanda sığorta-pensiya sistemində pensiyaların baza hissəsinin bütün pensiyaçılar üçün eyni vaxtda artırılması, sığorta hissəsinin isə inflyasiya həddində indeksləşdirilməsi mövcud maliyyə imkanlarının ölkə əhalisinin 13,5%-ni təşkil edən pensiyaçılar arasında ədalətli bölgüsünə imkan verib. Sistemdə ölkə iqtisadiyyatının inkişafına uyğun olaraq sosial sığortaya cəlb olunan əməkhaqlarının artımı pensiya artımlarını da şərtləndirir. Nəticədə 2003-cü ilin əvvəli ilə müqayisədə əmək pensiyalarının orta aylıq məbləği 9,2 dəfə artaraq 18,4 manatdan 170 manata, minimum məbləği 7,1 dəfə artaraq 14 manatdan 100 manata, yaşa görə pensiyalar üzrə əvəzetmə əmsalı 29,3%-dən 45 faizə çatdırılıb. Bu artım dinamikası MDB məkanında pensiyaların məbləği nisbətən yüksək olan ilk 4 dövlət içərisində ən yüksək göstəricidir.

Cari ilin 10 ayı ərzində DSMF-yə daxilolmaların səviyyəsi pensiya və müavinətlərin vaxtında maliyyələşdirilməsinə imkan verib. 10 ay ərzində Fondun gəlirləri 2 milyard 208 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 4% və ya 83 milyon manat çoxdur. Sosial sığorta gəlirləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 12% artaraq 1 milyard 253 milyon manata çatıb. Daxilolmaların 57%-i və ya 796 milyon manatı qeyri-büdcə sektorunun payına düşüb ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 15,6% və ya 107 milyon manat çox olmaqla proqnozun 115% icra edildiyini göstərir. Cari ilin 10 ayı ərzində Fondun xərcləri 2 milyard 119 milyon manat olub və bunun 98%-i pensiya və müavinətlərin maliyyələşdirilməsinə yönəldilib.

Sığorta-pensiya islahatları içərisində diqqət çəkən məqamlardan biri də yaşa görə əmək pensi-



yasının təyininin sadələşdirilməsi olub. Bu il iyunun 11-dən başlayaraq Azərbaycanda beynəlxalq praktikada ilk dəfə olaraq pensiyaların avtomatlaşdırılmış qaydada vahid mərkəzdən təyinatına başlanılması yaşlı insanların əlavə vaxt itkisinin qarşısını almaqla yanaşı, insan amilinin rolunun son dərəcə azaldılmasına, şəffaflığın daha da artmasına səbəb olub. Yaşa görə əmək pensiyalarının avtomatlaşdırılmış qaydada vahid mərkəzdən təyinatı sisteminin tətbiq olunduğu 4 ay ərzində 724 nəfərə bu sistem vasitəsilə pensiya təyin edilib. Noyabrın 11-i tarixinə olan statistikaya əsasən, təyinat aparılan şəxslərin 224-ü Bakı şəhərində, 500 nəfəri isə bölgələrdə yaşayan vətəndaşlardır.

Hazırda avtomatlaşdırılmış pensiya təyinatı ilkin olaraq yaşa görə əmək pensiyası növü üzrə aparılır. Əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyalarının təyinatının avtomatlaşdırılmış qaydada aparılması isə digər müvafiq dövlət qurumlarında qeyd olunan təyinatlarla bağlı zəruri informasiyaları özündə əks etdirən elektron xidmətlərin yaradılmasından sonra həyata keçiriləcəkdir.

Pensiyanın avtomatlaşdırılmış qaydada təyininə gəlincə, yaşa görə əmək pensiyası hüququna malik olan hər bir vətəndaş «190-0 Çağrı Mərkəzi»nə zəng vuraraq hər hansı sənəd toplamadan real vaxt rejimində dərhal pensiya təyinatı hüququnu reallaşdıra bilir. Əmək pensiyası təyinatı aparılan hər vətəndaşa bir neçə dəqiqə ərzində ona təyin olunan pensiyanın məbləği və öz plastik pensiya kartını ala biləcəyi müvəkkil bankın filialının ünvanı bildirilir.

**AYTƏN**

# Həmkarlar İttifaqı fəaliyyətini müasir dövrün tələblərinə uyğun qurur

*Dekabr ayının 15-də ömrünün 20 ilindən çox hissəsini vergi orqanlarında fəaliyyətə həsr etmiş Vergilər Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Məmməd Məmmədov ad gününü qeyd edir.*



Yubiley ərəfəsində Məmməd müəllimlə görüşüb keçmişə bir nəzər salmaq, vergi sisteminin formalaşmağa başladığı yaxın tariximizi səhifələmək istədik. Təbriklərimizi təvazökarlıqla qəbul edən M.Məmmədov müstəqil Azərbaycanın vergi sisteminin çox çətin və ağır tarixi mərhələlərdən keçərək bugünkü dinamik inkişaf mərhələsinə gəlib çatdığını bildirdi: «Azərbaycan yeni müstəqillik əldə etmişdi. Həmin dövrdə mən Baş Dövlət Vergi Müfəttişliyində həm təsərrüfat müdiri işləyirdim, həm də müfəttişliyin həmkarlar ittifaqı sədrinin səlahiyyətlərini həyata keçirirdim. Həmin dövrdə vergiləri toplamaq çox çətin idi, müəssisələrin əksəriyyəti işləmirdi, iqtisadi tənəzzül günbəgün dərinləşirdi. Azərbaycan xalqı 90-cı illərdə üzləşdiyi problemlərdən, dövləti parçalanıb dağılmaqdan xilas yolunu ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsində gördü. Xalqın təkidli tələbini eşidən ulu öndər belə ağır gündə xalqını tək qoymadı və hakimiyyətə qayıdaraq dövlətin suverenliyinin qorunması, inkişaf etdirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görməyə başladı. Respublikamızın milli inkişaf doktrinası hazırlanaraq həyata keçirildi. Ulu öndər Heydər Əliyev davamlı sosial-iqtisadi inkişafa və yeniləşməyə nail olmaq üçün təkamül yolu ilə yeni iqtisadi sistemə transformasiyanı və çoxmülkiyyətli iqtisadiyyatın formalaşmasını təmin etdi. Həyata keçirilən uğurlu islahatlar vergi sistemində də mühüm dəyişikliklərə səbəb oldu. Ümummilli liderin 11 fevral 2000-ci il tarixli fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Vergilər Nazirliyi yaradıldı. Beləliklə, ölkəmizdə dövlətin vahid vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən, bu sahədə dövlət nəzarətini həyata keçirən müstəqil dövlət orqanı fəaliyyətə başladı. Bu, vergi siyasətinin həyata keçirilməsində yeni mərhələnin başlanması demək idi».

M.Məmmədovun sözlərinə görə, Vergilər Nazirliyinin əsas strateji fəaliyyət istiqamətlərindən biri həmkarlar ittifaqlarının təşkili işinin təmin olunmasıdır: «Bazar iqtisadiyyatına keçid bir çox sahələr kimi vergi sistemində də mühüm yeniliklərin baş verməsi ilə yadda qalıb. 1993-cü il iyulun 15-də keçmiş Baş Dövlət Vergi Müfəttişliyinin Bakı şəhər müfəttişliyində yaradılan Birləşmiş Həmkarlar İttifaqları Komitəsi (BHİK) ötən dövr ərzində vergi işçilərinin sosial-iqtisadi və əmək hüquqlarının müdafiəsinin təmin edilməsi istiqamətində davamlı işlər görüb, hazırda da bu sistemdə çalışan əmək kollektivlərinin sosial vəziyyətlərinin yaxşılaşmasına öz töhfəsini verməkdədir. Vergi sahəsində aparılan sistemli islahatlar işçilərin əmək və iş şəraitinin, sosial vəziyyətinin müasir dövrün tələblərinə uyğun qurulmasına səbəb olub. İşçilərin əmək, maddi, sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli işlər görülüb. Ötən illər ərzində nazirliyin bütün strukturlarında, departament və ərazi vergilər idarələrində həmkarlar ittifaqlarının yaradılması təmin olunub, onun üzvlərinin sayı artıb. Həmkarlar ittifaqları işçilərin əmək, sosial və iqtisadi hüquqlarının və qanuni mənafelərinin təmin olunmasına ictimai nəzarəti həyata keçirir. Əməyin mühafizəsi, əmək hüquqlarının qorunması, işçilərin müvəqqəti əmək qabiliyyətini itirməsi ilə bağlı müavinətlərin verilməsi, ümumilikdə onların sosial vəziyyətinin yaxşılaşdırılması həmkarlar ittifaqlarının fəaliyyətinin başlıca istiqamətlərini təşkil edir».

Son illər respublikamızın iqtisadi inkişafının sürətlənməsi, yeni inkişaf meyarlarının meydana çıxması və davamlı olaraq işçilərin sosial müdafiəsinin gücləndirilməsi əmək qanunvericiliyinin də təkmilləşdirilməsinə səbəb olub. Yeni dövrün reallıqları həmkarlar ittifaqlarının da qarşısında bir sıra mühüm vəzifələr müəyyən edir. Buna görə də həmkarlar ittifaqları işini yeni dövrün tələblərinə uyğun qurmalı, daha səmərəli fəaliyyət göstərməlidir. 1993-cü ildən başlayaraq indiyədək vergi sistemində gedən bütün proseslərdə, nazirliyin ictimai həyatında yaxından fəal iştirak edən qurum kimi həmkarlar ittifaqı rəhbərliklə qarşılıqlı əməkdaşlıq, anlaşma, yüksək etimad, işgüzarlıq əsasında özünün nizamnamə tələblərinə və qanunun aliliyinə hörmət etmək, üzərinə düşən vəzifələri yerinə yetirmək əzmindədir. Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq vergi xidməti əməkdaşlarının əmək və sosial hüquqlarının maksimum səviyyədə qorunmasını təmin etmək, əməkçilərin iş şəraitini yaxşılaşdırmaq daim diqqətimizdə duran başlıca məsələdir».

*Məmməd müəllimi ad günü münasibətilə bir daha təbrik edir, ona cansağlığı, şərəfli və məsuliyyətli işində uğurlar arzu edirik.*

**Elbrus CƏFƏROV**




## vergi təqvimi

| DEKABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 24/31 | 25 | 26 | 27 | 28 | 29 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
20 dekabr - «(1-1)», «3», «4», «8», «10.1», «10.2»və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

# Bank və kassa əməliyyatlarının uçota alınması üzrə tövsiyə olunan ikili yazılış texnikası

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**Əvvəli ötən sayımızda**

2-ci istiqamətin izahı. Əvəzsiz pul (yardım) vermək istədiyimiz şəxs mövcuddursa, pulun həmin şəxsə xaric olmasının həmin şəxsə bizim yaranan kreditor borcumuzun ödənilməsi kimi qəbul edilməsi mümkün deyildir və ümumiyyətlə, həmin şəxslə hər hansı haqq-hesablaşma aparılmasına ehtiyac yoxdur. Ona görə də yardım kimi verilən pul vəsaiti birbaşa xərc kimi tanınmalıdır. Yardım şəklində verilmiş pul vəsaiti «əvəzsiz verilən aktiv» adı altında 731 №-li «sair əməliyyat xərcləri» hesabı ilə əlaqələndirilməlidir. Bu halda, məsələn, DB 731 - KR 221, 222 ikili yazılışı verilir.

3-cü istiqamətin izahı. Borc pul vermək istədiyimiz şəxslər gələcəkdə bizə borclu olan şəxslərdir və ya pulun borca verilməsi bizim debitor borclarımızın yaranmasına səbəb olan hadisədir. Lakin mühasibat uçotunda «debitor borclar» başlığı altında nəzərdə tutulan əməliyyatlar əsasən malların (işlərin, xidmətlərin) satışı ilə əlaqəli olmasına baxmayaraq, debitor borcun yaranması ilə nəticələnən pulun borca verilməsi əməliyyatının predmeti məhz «pul» olduğuna görə, pul hesabının kreditini birbaşa pulu bizdən borca alan şəxslə əlaqələndirmək (debetləşdirmək) lazımdır. Debitor borcların yaranmasına uyğun gələn ikili yazılış DB «alıcı və sifarişçilərin debitor borcları» - KR «əsas əməliyyat gəlirləri» ikli yazılışıdırsa, borc pul vermək istədiyimiz şəxslərlə aparılan əməliyyatlar üzrə debitor borcların yaranmasına DB «hesablar planında verilən aşağıdakı hesablar» - KR «pul hesabları» ikili yazılışı verilir:

| | |
|---|---|
| **Sair uzunmüddətli maliyyə aktivləri** | |
| 182 | Uzunmüddətli verilmiş borclar (verilmiş pul borcları) |
| **Sair qısamüddətli maliyyə aktivləri** | |
| 232 | Qısamüddətli verilmiş borclar (verilmiş pul borcları) |

4-cü istiqamətin izahı. Pulun yerdəyişməsi kimi bizim bir pul hesabımızdan pulun çıxarılaraq başqa pul hesabımıza daxil olması pulun bir hesabdan digər hesaba keçirilməsi əməliyyatı kimi təzahür edir və bunu aktivlərin yerdəyişməsi kimi müəyyənləşdirmək lazımdır. Hesablar planının aşağıda göstərilən hesablarının hər hansı birindən pul vəsaitinin digər hesaba keçirilməsi mümkündür (məsələn, DB221 - KR222, DB223 - KR222 və s. İkili yazılışları):

| Pul vəsaitləri və onların ekvivalentləri | |
|---|---|
| 221 | Kassa |
| 222 | Bank - milli valyuta ilə cari hesab |
| 223 | Bank - milli valyuta ilə depozit hesabı |
| 224 | Bank - xarici valyuta ilə cari hesab |
| 225 | Bank - xarici valyuta ilə depozit hesabı |
| 226 | Pul vəsaitlərinin ekvivalentləri |

5-ci istiqamətin izahı. Müəssisə hesabat ilinin nəticələri olaraq mənfəət əldə etdikdən sonra mənfəətin bölüşdürülməsi prosesi başlaya bilər. Təsisçi şəxslər mülkiyyətçisi olduğu müəssisənin mənfəətini müəssisənin balansından bu və ya digər (pul, digər əmlak) formada çıxara və şəxsi məqsədləri üçün istifadə edə bilər. Mənfəətin məbləğinin təsisçilər (səhmdarlar) tərəfindən pul şəklində götürülən hissəsi (dividend) ödəmə mənbəyindən vergisi tutulduqdan sonra kassadan nağd pul şəklində və ya təsisçinin bank hesabına ödəniş şəklində həyata keçirilir. Dividendin ödənilməsindən əvvəl dividend ödənişləri üzrə təsisçilərə öhdəlik yaranır, yəni dividendlər elan edilir. Bu əməliyyata DB344 «Elan edilmiş dividendlər» - KR534 «Gəlirlərin ödənilməsi üzrə təsisçilərə kreditor borcları» ikili yazılışı verilməlidir. Sonra isə dividendin ələ çatacaq hissəsinin pul hesablarından ödənişi həyata keçirilir. Bu əməliyyata DB534 - KR221, 222, 224 ikili yazılışı verilməlidir. Həmçinin dividenddən ödəmə mənbəyində tutularaq dövlət büdcəsinə ödənilməli olan 10% vergi məbləğinə DB534 «Gəlirlərin ödənilməsi üzrə təsisçilərə kreditor borcları» - KR521 «Vergi ödhdəlikləri» ikili yazılışı verilməlidir.

Deməli, pul hesablarından vəsaitlər ya kreditor borclu olduğumuz, ya əvəzsiz pul vermək istədiyimiz, ya borca pul vermək istədiyimiz şəxslərə, ya da pulun yerdəyişməsi kimi bir pul hesabından digər pul hesablarına köçürülməsi ola bilər. Daha dəqiq desək, pul hesablarının krediti hesablar planının 43-ci, 52-ci, 53-ci və 22-ci maddələrinin bütün hesabları və predmeti yalnız puldan ibarət olan (pulun alınması və qaytarılması və ya pulun verilməsi və geri alınması ilə bağlı olan) əməliyyatları əks etdirən 182, 232, 302, 401, 404, 501, 504 №-li hesabların debeti ilə müxabirləşə bilər. Pul hesablarının krediti çox az hallarda «geri qayıtma» əməliyyatları ilə əlaqədar digər hesablarla müxabirləşə bilər. Məsələn, alıcıdan alınan avans pulun müqavilə razılaşmasının pozulmasına görə geri qaytarılması (DB «alınmış avanslar» - KR «pul hesabları»), pul hesablarına səhv olaraq (naməlum) daxil olan vəsaitin sonradan pulun həqiqi sahibinə geri qaytarılması (DB «iddialar üzrə kreditor borclar» - KR «pul hesabları») və sair.

Aşağıdakı ikili yazılışların verilməsi tövsiyə olunmur:

- DB «ehtiyat hesabları» - KR «pul hesabları»
- DB «uzunmüddətli maddi aktivlər (əsas vəsaitlər)» - KR «pul hesabları»
- DB «uzunmüddətli qeyri-maddi aktivlər» - KR «pul hesabları»
- DB «istehsalat xərcləri hesabı» - KR «pul hesabları»
- DB «inzibati xərclər hesabı» - KR «pul hesabları»
- DB «kommersiya xərcləri hesabı» - KR «pul hesabları»

Alınan malın, işin və ya xidmətin dəyərinin alıcı tərəfindən (bizim tərəfimizdən) birbaşa ödənilib-ödənilməməsindən asılı olmayaraq, alışların dəyərinə əvvəlcə DB «mal, material, əsas vəsait, xidmət xərcləri» hesabları - KR «malsatan və podratçılara olan kreditor borclar» və ya digər kreditor borclar hesabı, sonra isə DB «kreditor borclar» hesabı - KR «pul vəsaitləri» hesabı kimi ikili yazılışların verilməsi tövsiyə olunur.

**Ardı növbəti sayımızda**

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Xırdavat mallarının ticarəti ilə biznesə başlayan sahibkar Bahəddin Qarakedəyev sonradan «Metan-N» MMC-ni təsis edib. Tikinti materiallarının ticarəti ilə məşğul olan sahibkar 2-3 il ərzində özünə xeyli müştəri toplayıb. Bir neçə özəl şirkətə və dövlət təşkilatına yol təmir-tikintisində istifadə olunan «traş» materiallarının satışını həyata keçirib, bundan külli miqdarda qazanc əldə edib. Lakin necə olur-olsun vergidən yayınmaq qərarından əl çəkməyən B. Qarakedəyev mühasibat sənədlərini saxtalaşdırıb, yüzlərlə ton «traş» materialını sənədlərdə bir neçə dəfə az göstərib...

Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin əməkdaşları tərəfindən həyata keçirilən operativ tədbirlər sayəsində «Metan-N» MMC-də külli miqdarda vergidən yayınma halları aşkar edilib. Müəyyən olunub ki, müəssisənin həyata keçirdiyi ticarət əməliyyatları nəticəsində 29098,71 manat məbləğində ƏDV dövlət büdcəsinə ödənilməyib. Vergi Məcəlləsinin 159.5-ci maddəsinin tələblərini pozan müəssisə rəhbəri barəsində müvafiq tədbirlərin görülməsi üçün toplanmış materiallar Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə təqdim olunub. Departamentin istintaq qrupu «Metan-N» MMC-də vergi cinayətinin olmasını tam sübuta yetirib və B.Qarakedəyev məsuliyyətə cəlb edilib.

Məsələ bundadır ki, B.Qarakedəyevin qanunsuzluqları bununla bitməyib. Araşdırmalar nəticəsində onun digər müəssisədə - IS və E» MMC-də də böyük məbləğdə vergidən yayınma hallarına yol verdiyi müəyyən olunub. B.Qarakedəyev müəssisəni həyat yoldaşının adına təsis edib. Amma həyat yoldaşını biznes fırıldaqlarından uzaq tutub, müəssisəyə özü rəhbərlik edib və MMC-nin mühasibi olmadığından bütün mühasibat işlərini təkbaşına həyata keçirib. Vergi bəyannamələrini özü hazırlayaraq vergi orqanına təqdim edib, müəssisənin banklarda olan bank hesablarına daxil olmuş pulları şəxsən özü çıxarıb, banklardakı imza və möhür nümunələri vərəqəsində imzalar ona aid olub. Müəssisə tərəfindən ölkənin kifayət qədər tanınmış şirkət və təşkilatlarına göstərilmiş xidmətlər müqabilində ödənilən pulların məbləği az göstərilib və nəticədə «S və E» MMC-nin ümumilikdə 41036,90 manat məbləğində vergidən yayındığı müəyyən edilib.

Bütün bu əməllərin nəticəsi olaraq, 70135,61 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındıran B.Qarakedəyev barəsində Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə cinayət işi açılıb. İş üzrə təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilən sahibkar ifadəsində ona qarşı ittihamların doğru olduğunu, özünü təqsirli bildiyini təsdiqləyib. Yasamal Rayon Məhkəməsinin hökmü ilə B.Qarakedəyev barəsində iki il dövlət və yerli özünüidarəetmə orqanlarında vəzifə tutmamaqla bir il islah işlərinə cəlb olunması barədə qərar çıxarılıb.

**ELBRUS**

beynəlxalq panoram

# Türkiyədə təcrübə mübadiləsi



**Türkiyə Cümhuriyyəti Maliyyə Nazirliyinin Gəlir İdarəsi Başkanlığının təşəbbüsü ilə Ankara şəhərində Azərbaycan və Türkiyə vergi administrasiyaları arasında təcrübə mübadiləsi keçirilmişdir.**

Tədbirdə Azərbaycan ilə Türkiyə arasındakı hərtərəfli inkişaf edən əlaqələr, bütün sahələrdə olduğu kimi iqtisadiyyat sahəsində də davamlı irəliləyişlərin olduğu qeyd edilmiş, bu görüşün vergi administrasiyaları arasında ikitərəfli əlaqələrin daha da inkişafına təkan olacağı bildirilmişdir.

Görüş çərçivəsində vergi nəzarəti tədbirləri zamanı vergidən yayınma hallarının aşkar edilməsində istifadə olunan metodlar, yanaşmalar, həmin metodların qanunvericilikdə təsbiti, məhkəmə perspektivi, mübahisələndirilən vergi nəzarəti aktlarının müdafiəsi zamanı sübutetmə vasitələri, hüquq strukturlarının işinin təşkili, nağdsız ödənişlərə nəzarət kimi mövzulara toxunulmuşdur. Türkiyə Respublikasında mövcud vergi sistemi, vergi administrasiyasının strukturu, qurumların səlahiyyətləri və vəzifələri, işə qəbul, təyinat, vergi yoxlamalarının əsas prinsipləri, standartları və etik davranış normaları barədə ətraflı məlumat verilmiş, «Vergi yoxlamalarının aparılması» və «Vergi cinayətləri, qəbahətləri və tətbiq edilən cəzalar» mövzusunda təqdimatlar edilmişdir.

Tədbirdə ölkəmizi Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi Samirə Musayeva, Xüsusi Rejimli Vergi Xidməti Departamentinin Hüquq şöbəsinin rəisi Vüqar Qurbanov, Beynəlxalq münasibətlər idarəsinin böyük dövlət vergi müfəttişi Riyad Ələkbərov təmsil etmişlər.

Səfər zamanı Azərbaycan nümayəndələrini Türkiyənin gəlir idarəsi başkanı Mehmet Kilci və onun müavini Mehmet Atuğ qəbul etmişdir. Görüşdə hər iki ölkənin vergi administrasiyaları arasında bundan sonra da səmərəli və məhsuldar əlaqələrin inkişaf etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

# Təhsil vasitəsilə əməletmənin yaxşılaşdırılması

*Avropadaxili Vergi Adminstrasiyaları Təşkilatının (IOTA) dəvəti ilə Azərbaycan Vergilər Nazirliyinin təmsilçiləri Makedoniyanın Skopye şəhərində «Təhsil vasitəsilə əməletmənin yaxşılaşdırılması» mövzusunda təşkil olunmuş tədbirdə iştirak etmişlər.*

Tədbirdə vergi öhdəliklərinin düzgün müəyyən edilməsi və vaxtında yerinə yetirilməsinin təhsil vasitəsilə artırılması, vergi ödəyicilərinin vergitutma ilə bağlı məlumatlılığının artırılmasında müxtəlif təhsil və təlim texnologiyalarından istifadə edilməsi, vergi ödəyicilərinə xidmət, təlim və tədris proseslərinin təşkili sahələrində təcrübə mübadiləsi kimi məsələlərə diqqət yönəldilmişdir.

IOTA-ya daxil olan 14 ölkədən nümayəndələrin iştirak etdiyi tədbirdə Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin Məlumatlandırma işinin təşkili şöbəsinin baş dövlət vergi müfəttişi Arif Ələkbər və Vergilər Nazirliyinin Tədris Mərkəzinin Elmi-tədqiqat bölməsinin rəisi İlqar Seyfullayev iştirak etmişlər.

# Birgə məsləhətləşmələr aparılıb

Almaniyanın Kiel şəhərində Azərbaycan Respublikasının Mülki Məcəlləsinin «Hüquqi şəxslər» fəslinin yenidən işlənilməsi ilə əlaqədar alman ekspertləri ilə məsləhətləşmələr aparılmışdır. Müzakirə edilən layihə ilə qüvvədə olan hüquqda artıq əksini tapmış məsələlərin bir qədər təkmilləşdirilməsi və dərinləşdirilməsi nəzərdə tutulub. Müzakirə obyekti kimi, iki hal istisna olmaqla, Məcəlləyə köklü konseptual dəyişikliklərin edilməsi təklif olunmur. Bu istisnalardan biri açıq və qapalı səhmdar cəmiyyətləri arasındakı fərqin aradan qaldırılması və əlavə məsuliyyətli cəmiyyət təşkilati-hüquqi formasından imtina edilməsi aiddir. Digər istisna hal isə kooperativlərlə bağlıdır. Təkliflərə müvafiq olaraq kooperativ üzvlərinin qorunması məqsədilə onların şəxsi məsuliyyəti məhdudlaşdırılmalıdır.

Bütövlükdə, müzakirələrin predmetinə kommersiya hüquqi şəxslərin qeydiyyatı, onların hüquqi vəziyyəti, yenidən təşkili, iştirakçılarının və orqanlarının hüquq və vəzifələri, əlaqəli hüquqi şəxslər və birgə fəaliyyət barədə müddəalar və s. daxil edilmişdir.

Müzakirələrdə Bakı Şəhər Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin rəis müavini, Qeydiyyat şöbəsinin rəisi Samir Seyidəhmədli, Prezident Adminstrasiyasının şöbə rəisinin müavini İlqar Qurbanov, ekspert Əkrəm Həsənov, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin nümayəndəsi Elçin Usub iştirak etmişlər.

# G20 ölkələri 2015-ci ildən vergilərə dair informasiyaları paylaşacaqlar

*«Böyük iyirmilik» (G20) ölkələrinin maliyyə nazirləri Rusiyada keçirilən sammitdə iri şirkətlərin vergidən yayınmasına imkan verən qanun boşluqlarının aradan qaldırılmasına dair razılığa gəliblər. 2015-ci ilin sonuna kimi «yeni qlobal standart» - vergi məlumatlarının birgə istifadəsi üçün avtomatik mübadilə sistemini tətbiq etmək planlaşdırılır.*




Vergi sisteminin qloballaşdırılması ideyası çoxdan müzakirə olunur. Vergi orqanları bu mövqedədirlər ki, iri şirkətlər tədricən transmilli korporasiyalara çevrilir və vergilərdən yayınmaq üçün daha çox üsullardan istifadə etməyə başlayırlar. Nəticə etibarilə hazırkı vəziyyətdə onlar hər il təxminən 300 milyard dollar mənfəət vergisinin ödənilməsindən yayınırlar.

«Maliyyə vəsaitlərinin bir ölkədən digərinə keçirilməsi ilə vergilərdən yayınma ölkənin maliyyə sisteminə zərbədir və vətəndaşların vergi sisteminin ədalətliliyinə inamını sarsıdır. Biz bu problemlərin həlli üçün planları təsdiq edir və vergidən yayınanların aşkarlanması, ziyanlı praktika və təcavüzkar vergi planlaşdırılması qaydalarını dəyişmək üçün lazımi addımlar atmağı öhdəmizə götürürük. İqtisadi fəallıq hardadırsa, kapitalın artımı harada baş verirsə, mənfəətin vergiyə cəlb edilməsi də həmin yerdə aparılmalıdır», - G20-nin kommunikesində qeyd olunmuşdur.

Vergilərə dair məlumatların beynəlxalq mübadilə sisteminin tətbiqinin təşəbbüskarı Böyük Britaniya hökumətidir. Rəsmi London «qlobal standartların» tətbiqi üçün artıq 50 ölkənin yazılı razılığını ala bilib. Bu təşəbbüsə Çin hökuməti də qoşulub və özünün müvafiq informasiya bazasına girişə razılıq verib. Beləliklə, vergilərə dair məlumatların mübadiləsinə G20-yə daxil olan iyirmi ölkənin hamısı razılıq verib ki, bu da həmin ölkələrdə yeni sistemi tətbiq etməyə, sonradan isə digər dövlətlərdə genişləndirməyə imkan verir. G20 ölkələrinin liderləri həmçinin inkişaf etməkdə olan ölkələrə vergidən yayınan şirkətləri tapmaqda, eləcə də offşor ərazilərə pul axınlarını izləməkdə yardım vəd ediblər.

Ekspertlərin fikrincə, vergi informasiyalarının avtomatik mübadiləsi sistemi korrupsiya ilə mübarizədə mühüm vasitə olmaqla, yeni qlobal maliyyə böhranlarının qarşısının alınmasında əvəzsiz rol oynayacaq. Ekspertlər hesab edirlər ki, vergidən yayınma hallarına tamamilə son qoyulmasında G20-nin təklif etdiyi islahatların böyük potensialı var. Hesablamalara görə, inkişaf etməkdə olan ölkələrin vergidən yayınma nəticəsində hər il itirdikləri vəsaitlərin həcmi həmin dövlətlərin aldıqları yardımların həcmindən çoxdur.

Düzdür, bir sıra analitiklər dəyişikliklərin təşəbbüskarı kimi Böyük Britaniyanın çıxış etməsini birmənalı qarşılamırlar: bu dövlət qaranlıq maliyyə əməliyyatlarının aparıldığı bölgələrin himayədarı kimi tanınır. Birləşmiş Krallığa daxil olan Virciniya adaları dünyanın ən iri offşor zonalarından biridir və bura keçmiş SSRİ ölkələrindən olan qaçaq iş adamlarının sevimli məskənlərindən sayılır.

Ekspertlər bildirirlər ki, inkişaf etməkdə olan dövlətlər islahatların müzakirə olunduğu danışıqlar masasına dəvət olunmayıblar. BMT-nin vergi komitəsinin digər ölkələri də islahatların müzakirəsinə cəlb etmək niyyətinə baxmayaraq, G20 bu təşəbbüsü dəstəkləyəcək heç bir addım atmayıb.

Qeyd edək ki, G20 - Avropa Birliyinin, eləcə də iri iqtisadiyyata malik 19 dövlətin maliyyə nazirləri və mərkəzi bank rəhbərlərinin beynəlxalq müşavirə forumudur. G20 ölkələrinin payına dünya ÜDM-nin 90%-i, ticarətin 80%-i və dünya əhalisinin üçdə iki hissəsi daxildir.

# Maliyyə cinayətləri ilə mübarizə

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Vergi siyasəti və inzibatçılığı mərkəzi tərəfindən İstanbulda «Vergi və cinayət: maliyyə cinayətləri ilə mübarizəyə dövlət yanaşması» mövzusunda forum keçirilmişdir.**

Forumun əsas məqsədi iqtisadi sahədə cinayətlərlə mübarizədə bütöv dövlət yanaşması prinsipinin iştirakçı dövlətlər tərəfindən tətbiqi, maliyyə vəsaitlərinin qeyri-qanuni axımının qarşısının alınması, o cümlədən OECD tərəfindən bu istiqamətlərdə aparılan işlər barədə geniş məlumat mübadiləsinin aparılması idi.

Forumda «Vergi və maliyyə cinayətləri ilə mübarizədə qurumlararası əməkdaşlığın yeni strategiyaları», «Vergi cinayətlərinin təhqiqatı üzrə səriştələrin yaradılması» tədris kursu barədə, «Elektron valyutalar və maliyyə cinayətləri», «Vergi və maliyyə cinayətləri ilə mübarizə üzrə əməkdaşlıq sahəsində maneələrin aradan qaldırılması», «Verginin rüşvətxorluq və korrupsiyaya qarşı mübarizədə rolu», «İnkişaf etməkdə olan dövlətlərdən maliyyə axınlarının qarşısının alınması», «Vergi cinayətlərinin və digər cinayətlərin ibtidai araşdırılması» və s. mövzularda təqdimatlar edilmişdir.

Tədbirdə Azərbaycan Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin Təhqiqat şöbəsinin rəisi Cavanşir Nuriyev və Hüquq Baş İdarəsinin Hüquqi təminat şöbəsinin hüquqşünası Nərmin Həsənova iştirak etmişdir.




krossvord

**Yuxarıdan aşağı:**

1.Bəstəkar R.Mustafayevin 1968-ci ildə C.Cabbarlının eyniadlı əsəri əsasında yazdığı opera; 2.İsveçrənin cənubunda şəhər; 3.İngilis dilində xanım, qadınlara müraciət forması; 4.Bəd nəzərdən qoruyan əşya. Talisman; 5.Qohumluq dərəcəsi; 6.Orta Asiyadan Avropaya çəkilməsi planlaşdırılan qaz boru kəməri layihəsi; 7.Niderlandın məsaməli pendir növü; 13.İlin fəsli; 14.Yaponiyanın pul vahidi; 15.Triqonometrik funksiya; 16.Şimali İngiltərədə tarixi qraflıq; 18.Qədim türk dilində vergi və mükəlləfiyyətdən azad olunmuş rəiyyət; 22.Böyük Britaniyada şəhər; 23.«Məqam» sözünün türkcə qarşılığı, musiqi termini; 24.Qədim yunan mifologiyasında Troyan müharibəsinin qəhrəmanı; 25.Azərbaycanın Qaradağ rayonunda qəsəbə.

**Soldan sağa:**

1.Klassik Azərbaycan şairi, yazıçı, dramaturq, publisist, pedaqoq, ədəbiyyatşünasın adı (1881-1959). Bir sıra dərsliklərin, şeirlərin, povest və romanların müəllifi; 5.Azərbaycanda qadınlara müraciət forması; 8.Azərbaycanın Qubadlı rayonunun inzibati ərazi vahidində kənd; 9.Paxlakimilər fəsiləsinə aid bitki cinsi; 10.Azərbaycanın qadın müğənnisinin adı, xalq artisti; 11.Azərbaycan dilində feil; 12.Qədim yunan mifologiyasında siciliyalı çoban, Qalateyanın sevgilisi; 15.Asiyanın ən şimal yarımadası; 17.Renesans dövrünün məşhur fransız arxitektorunun soyadı (1510-1570); 19.Stolüstü oyun; 20.Qış mövsümünün əlaməti; 21.Bəşəriyyətin atası hesab edilən peyğəmbər; 26.Kişi adı; 27.Son dərəcə coşğun xarakterə malik insan temperamenti; 28.Azərbaycanın Abşeron rayonunda qəsəbə; 29.Kimyəvi element.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Edikt; 2.«İnsan»; 3.Rain *(Sultanov)*; 4.Mikser; 5.Bariton; 6.Canavar; 9.Metil; 11.Axa; 13.Qrand; 14.Samovar; 15.Marsala; 17.Elm; 18.Ksenon; 21.«Maral»; 22.İxlas; 23.Temp.

**Soldan sağa:** 1.Epiqram; 5.BBC; 7.İnstinkt; 8.Uran; 10.Tank; 12.Detektiv; 14.Samara; 16.Pioner; 19.Marinist; 20.Emmi; 24.Vraç; 25.İnteqral; 26.Roa; 27.Annapolis.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# «Synergy Baku Cycling Project» beynəlxalq veloyürüşdə iştirak edəcək

*Azərbaycanın ilk peşəkar velosiped komandası «Synergy Baku Cycling Project» yanvarın 29-dan fevralın 2-dək Yeni Zelandiyanın Manavatu şəhərində keçiriləcək «Cycle Classic» veloyürüşündə mübarizə aparacaq.*



Azərbaycan Velosiped İdmanı Federasiyasından bildirmişlər ki, «Synergy Baku» 2013-cü ildə Beynəlxalq Velosipedçilər İttifaqının xətti ilə keçirilmiş Avropa və Asiya turlarında üst-üstə 14 dəfə qələbə sevinci yaşadığı üçün Yeni Zelandiya turunda favoritlər sırasındadır.

Komandanın meneceri David McQuaidın bildirmişdir ki, Yeni Zelandiya turundan öncə «Synergy Baku Cycling Project» Avstraliyanın Melbrun şəhərində təlim-məşq toplanışında da iştirak edəcəkdir. O, həmçinin demişdir ki, kollektivdə aparılan kadr dəyişiklikləri ilə əlaqədar gələn il komanda üzvlərinin orta yaşı 25-ə bərabər olacaqdır. Xatırladaq ki, 2013-cü ildə müvafiq göstərici 27 yaş olmuşdur.

# Dünya çempionatında 11 medal

**Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində veteran cüdoçular arasında dünya çempionatı keçirilmişdir. Yarışda iştirak edən Azərbaycan millisi 11 medal qazanmışdır.**

Çempionatda Elçin Mayılov, Elxan Rəcəbli, Rəsul Səlimov, Rəsul Sultanov, Müşfiq Cəfərov, Vüqar Hüseynov və Vüqar Budaqov fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar. Zülfiyyə Hüseynova gümüş, Fərhad Rəcəbli, Zaur Paşayev və Məhəmməd Müslümzadə isə bürünc medal qazanmışlar.

Komanda hesabında Azərbaycan millisi 54 ölkə arasında dördüncü olmuşdur.

# Yeniyetmə güləşçilərimiz Ukraynaya yollanırlar

**Ukrayna Azərbaycanlıları Konqresinin Kiyev şəhər təşkilatının və Heydər Əliyev adına Ukrayna-Azərbaycan təhsil, elm, mədəniyyət və idman mərkəzinin təşəbbüsü ilə dekabrın 6-8-də güləş üzrə yeniyetmələr arasında V beynəlxalq turnir keçiriləcəkdir.**

Ümummilli lider Heydər Əliyevin xatirəsinə və Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş yarışda böyük məşqçi Rövşən Süleymanovun başçılığı altında qızlardan ibarət yığma komanda 4 çəki dərəcəsində mübarizə aparacaqdır.

Böyük məşqçi Əsgərxan Novruzov və məşqçi Rövşən Hacıyevin rəhbərliyi altında sərbəst güləş üzrə yeniyetmə oğlanlardan ibarət yığma komanda isə tam heyətlə iştirak edəcəkdir.

# Şahmat üzrə dünya çempionatı davam edir

*Xəbər verdiyimiz kimi, Türkiyənin Antalya şəhərində şahmat üzrə komanda dünya çempionatı davam edir. Çempionatın altıncı turunda Azərbaycan şahmatçılarının rəqibləri amerikalılar olmuşlar.*

Şahmatçımız Rauf Məmmədov Hikaru Nakamura ilə, Eltac Səfərli Qata Kamski ilə, Nicat Məmmədov isə Aleksandr Onişuk ilə heç-heçə etmişlər, Qədir Hüseynov isə Rey Robsona məğlub olmuşdur - 1,5:2,5.



Altıncı turun digər görüşləri aşağıdakı komandalar arasında keçirilmişdir: Hollandiya-Ukrayna (2,5:1,5), Türkiyə-Rusiya (1:3), Almaniya-Ermənistan (3:1), Misir-Çin (1:3). Altıncı turun nəticələrində görə Ukrayna komandası 10 xalla liderliyini qorumuşdur, Rusiyanın hesabında 9 xal, Hollandiyanın 8 xal, Ermənistan, ABŞ, Almaniya, Çin komandalarının hesablarında 6 xal, Azərbaycan yığmasının aktivində 5 xalı var. Türkiyənin 2 xalı, Misirin isə heç bir xalı yoxdur. Azərbaycan, Rusiya, Ukrayna, Niderland, Almaniya, ABŞ, Çin, Ermənistan, Misir və Türkiyə yığmalarının iştirakı ilə dairəvi sistem üzrə keçirilən builki turnir dekabrın 6-da başa çatacaqdır.

## mozaika

texnologiya

# Telefonlar ildən-ilə «ağıllanır»



«Gartner» analitik agentliyinin hesabatına əsasən, 4 il sonra mobil qurğular o qədər təkmilləşəcək ki, məsələn, öz sahibinin sonrakı hərəkətini öncədən söyləyə biləcək, faktiki olaraq rəqəmsal katiblərə çevriləcək. Smartfonlar təqvimdən informasiya əldə edəcək, müxtəlif göstəriciləri təhlil edəcəkdir. Bu sahədə artıq müəyyən addımlar atılmaqdadır.

Avstraliyada uşaqlara və ahıl insanlara qulluq etməyə kömək edən «Cloudphone» telefon modeli istehsal olunmuşdur. Model xarici görünüşünə görə peycer və telefon arasında olan qurğunu xatırladır. Qurğunu asanlıqla idarə etmək mümkündür. Bunun üçün səslə komanda vermək kifayət edir. Telefon zənglərlə yanaşı, istifadəçinin harada olmasını və getdiyi marşrutu müəyyənləşdirərək məlumatları qohumların elektron poçtuna və ya mobil qurğusuna göndərir. Bundan başqa, qurğu ailə üzvlərinə himayədə olan şəxsin marşrutdan yayınması zaman onlara zəng və ya bildirişlə xəbər verir.

Eyni zamanda, telefon vasitəsilə istifadəçinin fiziki vəziyyətini, müəyyən vaxt ərzində onun neçə addım atmasını, nə qədər məsafə qət etməsini, evdə nə qədər olmasını, kimə və nə vaxt zəng etməsini, həkimin tövsiyələrinə əməl etməsini öyrənmək mümkündür. Qurğunun digər vacib funksiyalarından biri şərti sözlə verilən həyəcan və təhlükə siqnalının çatdırılmasıdır. Belə ki, telefon himayədə olan şəxsin yıxılmasını və ya uzunmüddətli hərəkətsiz qalmasını qeydə alan zaman müstəqil şəkildə ailə üzvlərini və ya xilasetmə xidmətlərini xəbərdar edə bilir. Qiyməti təxminən 200 dollar təşkil edəcək qurğunun gələn ilin ortalarında satışa çıxarılması gözlənilir.

araşdırma

# QİÇS xəstəliyinin müalicəsində əhəmiyyətli addım atılıb

**İngiltərənin 5 nüfuzlu universitetinin alimləri bəşəriyyət üçün böyük bəlaya çevrilən QİÇS-in müalicəsinin mümkün olduğunu bildiriblər.**



Alimlər QİÇS xəstələrinə kimyəvi terapiyanın tətbiqini məsləhət biliblər. Bu üsulla hüceyrələri həssas vəziyyətə gətirib sonra QİÇS viruslarına qarşı peyvənd iynələri vurulur. Ekspertlərin fikrincə, QİÇS viruslarını «oyanıq» vəziyyətə gətirib sonra zərərsizləşdirmək mümkün olacaq.

Qeyd edək ki, indiyə kimi tətbiq olunan müalicə üsulları yalnız QİÇS xəstəliyinin inkişaf etməsinin qarşısını almağa yetərli olub. İngilis alimlər isə yeni üsulla bu xəstəliyə qalib gəlməyin mümkün olduğunu bildirirlər.

sağlam hayat tarzi

# Balqabaq

*ABŞ-ın Kolorado Universitetinin əməkdaşları araşdırıblar ki, balqabaq şirəsi mədəaltı vəz xərçənginə qarşı ən yaxşı vasitədir. Xərçəng hüceyrələri şəkərlə qidalanır və enerjini buradan alırlar, onlar başqa yolla enerji ala bilmirlər.*



Balqabaq bitkisinin tərkibində şəkəri məhv edən maddələr var. Kəsəyənlər üzərində aparılan təcrübə göstərib ki, balqabaq şirəsi xərçəng hüceyrələrinin 60%-ni məhv edir. Mədəaltı vəz xərçəngi ən təhlükəli xərçəng növü hesab olunur. Bu xəstəliyə mübtəla olanların yalnız 6%-nin sağ qalma ehtimalı var.

Apteklərdə balqabaqdan hazırlanmış dərmanlar da mövcuddur. Amma ev şəraitində balqabaq şirəsini hazırlamaq daha təhlükəsizdir. Xatırladaq ki, üç il öncə balqabaq şirəsinin döş xərçənginin müalicəsində faydalı olduğu aşkar olunmuşdu.

Balqabağın ən önəmli xüsusiyyəti çox yüksək miqdarda beta-karoteinlə zəngin olmasındadır. Karotein dəri toxumalarını yeniləyən vitamindir. İmmunitet sisteminin güclənməsi üçün beta-karotein əsasdır. İmmunitet sistemi bizi xərçəng və bir sıra xəstəliklərdən qoruyan ən önəmli müdafiə sistemidir. Balqabaqda dəmir, kalium, sodium, fosfor, kalsium və maqnezium var. Tərkibindəki dəmirə görə qanazlığının qarşısını alır.

# Səhər əzginliyinin səbəbi



Səhər yuxudan duranda çoxları özünü yaxşı hiss etmir, yuxulu olurlar. ABŞ-ın Kolorado Universitetinin alimləri bildirib ki, buna səbəb təbii bioritmin pozulmasıdır. Mütəxəssislər səhər yorğunluğunun mexanizmini araşdırarkən məlum olub ki, yatmazdan iki saat öncə qanda melatonin hormonunun miqdarı artır. Bu hormon yuxunu və qıvraqlığı idarə edir. Bundan başqa, melatonin arterial təzyiqi normallaşdırır, dərini yaxşılaşdırır, orqanizmin bərpasında fəal iştirak edir.

Melatonin daha çox axşam, qaranlıq düşəndə, sübh çağı ifraz olunur. Əgər insan bir qayda olaraq, gecəyarısı yatırsa, o zaman qanda bu hormonun miqdarı artır. Hormonun qatılığı bir neçə saat ərzində azalmır. Bu da adamı yuxulu və əzgin edir.

Səhər yorğun, yuxulu və əzgin olmamaq üçün alimlər yuxunu tənzimləməyi məsləhət görürlər. Gecə istirahəti eyni vaxtda başlamalı və gecikməməlidir.

## Müdriklər deyib ki...



***«Heç bir zəfər məqsəd deyildir. Zəfər onun özündən daha böyük məqsədə çatmaq üçün ciddi bir vasitədir».***

***Mustafa Kamal Atatürk 1881-1938***